Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

## HÜQUQ JURNALI




№ 04 aprel 2017

*Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur!*

*Heydər ƏLİYEV,*
*Azərbaycan xalqının ümummilli lideri*



***Ölkəmizin hərtərəfli inkişafı üçün, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi üçün məhkəmə-hüquq sisteminin təkmilləşməsi başlıca şərtdir***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



QANUNÇULUQ
HÜQUQ JURNALI
№ 04 APREL 2017

TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Faiq Qurbanov**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**




Qeydiyyat tarixi: 18.04.2003,
Reyestr №-si: 439. İndeks 1032

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş,
“Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
Ədliyyə Nəşriyyat Evi MMC-nin ünvanı: Xaqani küç., 14,
tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri:
“Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701;

Azərbaycan Beynəlxalq Bankın Səbail filialı, kod 805551,
VÖEN 9900001881, M/h 0137010002031,
SWİFT/Bik İBAZAZ-2X.

# Bu sayımızda:

**RƏSMİ MƏLUMAT**




Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri ....................4

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib ....................7


**QƏBULLAR, İCLASLAR**




Ədliyyə naziri Goranboy rayonunda vətəndaşları qəbul edib ....................9

Məhkəmə-Hüquq Şurasının geniş iclası keçirilib....................10

Ali Məhkəmənin Plenumunda ....................11


**BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**






Azərbaycan və Əlcəzair arasında əməkdaşlığa dair ilk sənəd imzalanıb ....................14

Azərbaycan-Latviya: hüquqi əlaqələr genişlənir ....................17

İndoneziya ölkəmizlə hüquqi sahədə əməkdaşlıqda maraqlıdır ......19

Beynəlxalq təşkilatların təmsilçiləri ilə görüşlər ....................19


**ƏDLİYYƏ NAZİRLİYİNDƏ**




Ədliyyə Akademiyasının məlumatları....................23

Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür ....................26


**YENİ QANUNLAR, FƏRMANLAR...**


“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu....................27

“Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu....................29

“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu....................30


**KONSTİTUSİYA MƏHKƏMƏSİNİN PLENUM QƏRARLARI**


“Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ....................32

“Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ....................40



# Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri



Təkbətək görüş

**Azərbaycan-Qazaxıstan əlaqələri bütün sahələrdə uğurla inkişaf edir, dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri ölkələrimiz arasında əməkdaşlığın ildən-ilə güclənməsinə mühüm təsir göstərir. İki dövlət arasında müxtəlif sahələrə dair imzalanmış sazişlər əməkdaşlığın dinamik inkişafına böyük təkan verir.**

Aprelin 3-də Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri



Geniş tərkibdə görüş

əlamətdar hadisələrlə yadda qalıb. Dövlət başçılarının məhdud və geniş tərkibdə görüşlərində ölkələrimiz arasında ikitərəfli, siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi vurğulanıb. Əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunaraq, yüksək səviyyədə qarşılıqlı səfərlərin əməkdaşlığın genişləndirilməsində önəmli rol oynadığı qeyd edilib.

Sonra Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi keçirilib. Prezident İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Prezidentlərin Birgə Bəyannaməsini imzalayıblar. Həmçinin, "Azərbaycan Dəmir Yolları" QSC ilə Qazaxıstan Dəmir Yolları Milli Şirkəti arasında logistika və dəmir yolu nəqliyyat maşınqayırması sahəsində strateji əməkdaşlıq haqqında Saziş, Azərbaycan və Qazaxıstan hökumətləri arasında ikiqat vergitutma sahəsində Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında Protokol, Beynəlxalq avtomobil əlaqələri və Bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında sazişlər, iki ölkənin Xarici İşlər nazirlikləri arasında 2017-2018-ci illər üzrə Əməkdaşlıq Proqramı imzalanıb.

Dövlət başçılarının iştirakı ilə müxtəlif sahələrə dair imzalanan sənədlər möhkəm təməl üzərində qurulmuş münasibətlərin hazırkı və perspektiv inkişaf prioritetlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkə başçıları mətbuata bəyanatla çıxış ediblər. İki ölkə arasında münasibətləri xarakterizə edən Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəm təməli var. Bu il biz dövlətlərimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd edirik, hərçənd xalqlarımızın qarşılıqlı münasibətlərinin tarixi yüzilliklərlə hesablanır. Bu tarix həmişə dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək tarixi olub.

Dövlətimizin başçısı, həmçinin fəal inkişaf edən,



*Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi*

iki müstəqil dövlət kimi əməkdaşlığın ikitərəfli formatını möhkəmləndirən Qazaxıstan və Azərbaycanın beynəlxalq strukturlarda da əməkdaşlıq etdiyini, həmişə qarşılıqlı dəstək olduğunu söyləyib, Qazaxıstan dövlətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ilk gündən ədalətli və beynəlxalq hüquq normalarına söykənən mövqe tutduğunu vurğulayıb.

Qazaxıstan Prezidenti çıxışında ticari münasibətlərə toxunaraq əmtəə dövriyyəsinin artırılmasının vacibliyini qeyd edib, idxal-ixrac, sənaye və energetika sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu bildirib, regional təhlükəsizlik, dünyanı bürüyən terrorçuluqla mübarizə məsələlərindən bəhs edib. Prezident Nursultan Nazarbayev hazırkı səfərin və aparılan danışıqların Azərbaycan-Qazaxıstan münasibətlərinə tamamilə yeni yol açacağını, yeni impuls verəcəyini vurğulayaraq qeyd edib ki, bunlar hər iki dövlət üçün sərfəlidir, ölkələrimiz arasındakı ənənəvi dostluğu, etimadı möhkəmləndirir.

Səfər zamanı Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevə "Heydər Əliyev" ordeni də təqdim edilib.

Qazaxıstan dövlətinin başçısı ölkəmizə səfəri çərçivəsində Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib. Ali qonaq həmçinin, Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Elə həmin gün Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin Azərbaycan Respublikasına rəsmi səfəri başa çatıb.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.**

Dövlət başçısı iclası giriş nitqi ilə açaraq bu ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişafın təmin olunduğunu, sosial məsələlərin həllini tapdığını, ordu quruculuğunun uğurla getdiyini bildirib, beynəlxalq vəziyyətin gərginliyinə, münaqişələrin davam etdiyinə diqqət çəkərək ölkəmizin təhlükəsizliyinin təmin olunduğunu söyləyib.

Xarici ölkələrə 7 dəfə səfərindən və beynəlxalq tədbirlərdəki iştirakından danışan Prezident İlham Əliyev bu səfərlərin Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsi, ikitərəfli əlaqələrin inkişafı baxımından önəmini vurğulayıb, 7 dövlət başçısının Azərbayjana səfərini ölkəmizə olan hörmətin göstəricisi kimi qiymətləndirib. Həmçinin, Bakıda keçirilən V Qlobal Forumun, ABŞ və Rusiya silahlı qüvvələrinin qərargah rəislərinin görüşünün Azərbaycanın dünyadakı rolunu, dünya miqyasında etibarlı tərəfdaş olduğunu əks etdirdiyini bildirib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident İlham Əliyev Minsk qrupu həmsədr ölkələrinin bir neçə dəfə bəyan etdiyi kimi, status-kvonun qəbuledilməzliyini vurğulayıb. ATƏT-in Minsk qrupu Ermənistana təzyiqi daha da gücləndirməlidir. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr qeyd-şərtsiz icra olunmalı və işğalçı qüvvələr işğal olunmuş ərazilərdən çıxarılmalıdır.

Dövlət başçısı Dağlıq Qarabağda qondarma "referendum" keçirməklə Ermənistanın bir daha özünü biabır etdiyini, qonşu, Minsk qrupuna həmsədr, Avropa İttifaqı və bir çox digər ölkələrin bu "referendum"u pislədiyini və tanımadıqlarını, əksinə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərdiklərini vurğulayıb, Dağlıq Qarabağa qanunsuz səfər etmiş, xaricdə saxlanılan əcnəbi vətəndaşın bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verilməsini növbəti uğur kimi qiymətləndirib.

Cocuq Mərcanlı kəndinin bərpasını da tarixi hadisə adlandıran ölkə rəhbəri bu gün orada yeni qəsəbənin salındığını, ilkin mərhələdə 50 evin tikildiyini, yeni yolun salındığını, məscidin inşa olunduğunu, sonrakı mərhələdə daha 150 evin tikintisinin nəzərdə tutulduğunu qeyd edib, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər

salan Prezident İlham Əliyev ilin ilk 3 ayı ərzində qeyri-neft sektorunun 2,4 faiz artdığını, qeyri-neft sənayesində artımın 2 faiz səviyyəsində olduğunu, kənd təsərrüfatının 3,5 faiz, bitkiçiliyin 20 faizdən çox artdığını bildirib. Birinci rübdə valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində çoxalıb və bu gün valyuta ehtiyatlarımız 38,5 milyard dollar təşkil edir. Ticarət dövriyyəsi 15 faiz, ixrac təxminən 50 faiz, qeyri-neft ixracımız təxminən 10 faiz artıb, idxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyimizi təmin edir. Ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Həmçinin, birinci rübdə 85 min yeni iş yeri yaradılıb və bu proses təkcə dövlət sektorunda deyil, özəl sektorda da davam edir və özəl sektorda 40 mindən çox yeni iş yeri yaradılıb.

Cənub Qaz Dəhlizindən bəhs edən Prezident İlham Əliyev bu il üçünjü dəfədir Bakıda keçirilən Məşvərət Şurasının iclasının yekunu olaraq ölkəmizin liderlik rolunun qeyd edildiyi qətnamənin qəbul olunduğunu söyləyib. Bildirib ki, Cənub Qaz Dəhlizinin tezliklə istifadəyə verilməsi həm bizim, həm layihədə iştirak edən, həm də gələcəkdə bu layihədən xeyir götürəcək ölkələr üçün önəmlidir.

Prezident İlham Əliyev nəqliyyat sektorunda da yaxşı nəticələrin qeyd edildiyini, Astaraçay çayı üzərindən keçən körpü vasitəsilə mart ayında Azərbaycandan İrana birinci qatarın yol salındığını, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin də bu il istifadəyə verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Turistlərin ölkəmizə səfərində 25 faiz artımın olduğunu qeyd edən dövlət başçısı bunu Azərbaycanda mövcud olan sabitlik, yaradılan müasir infrastruktur, ölkəmizdəki 6 hava limanı, gözəl yolların, otellərin inşası, müalicəvi turizmin inkişafı ilə əlaqələndirib. Bildirib ki, 3 ay ərzində "ASAN viza" xətti ilə 40 min viza verilib. Səksəndən çox ölkə vətəndaşı elektron vizalar alır. Bu gün Bakının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu deyən Prezident İlham Əliyev gələn ay ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçiriləcəyini vurğulayıb.

Sonra müdafiə sənayesi naziri Yavər Camalov, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev çıxış ediblər.

İclasa yekun vuran Prezident İlham Əliyev 2017-ci ilin ilk aylarının yaxşı nəticələrlə yekunlaşdığını bildirib. Makroiqtisadi sabitliyin möhkəmləndirilməsini, süni qiymət artımına yol verilməməsini, builki investisiya proqramının tam şəkildə icra edilməsinin vacibliyini vurğulayıb. Dövlətimizin başçısı valyuta ehtiyatlarımızın xarici borcumuzdan 5 dəfədən çox olduğunu, inşaat sektorunda canlanma müşahidə edildiyini bildirib, yeni inşa olunan binaların birinci mərtəbələrində uşaq bağçalarının inşa edilməsini tapşırıb və bu yolla da uşaq bağçası probleminin həll ediləcəyini söyləyib.

Prezident İlham Əliyev sənaye istehsalı və kənd təsərrüfatı sahələrinin prioritet olduğunu, rayonlarda sənaye zonalarının yaradıldığını bildirib, kənd təsərrüfatının inkişafı üçün bu il 150 min hektar yeni torpağın suvarılmasının nəzərdə tutulduğunu, yeni zavodların istifadəyə veriləcəyini qeyd edib.

Qeyri-neft sektorunun istehsal etdiyi məhsulların ixracı ilə bağlı məsələyə toxunan dövlətimizin başçısı Azərbaycan brendinin dünyada təbliğ edildiyini, müxtəlif ölkələrdə ticarət evlərinin yaradıldığını, ticarət-ixrac missiyalarının həyata keçirildiyini qeyd edib. Bu istiqamətdə xarici mediada reklam kampaniyalarının aparılmasının, yeni ixrac bazarlarına çıxışın təmin edilməsinin, logistika mərkəzlərinin yaradılmasının vacibliyini söyləyib. Prezident İlham Əliyev bildirib ki, il ərzində infrastruktur layihələrinin icrasına diqqət yetiriləcək. Bunlar elektrik enerjisi ilə təminat, qazlaşdırma, içməli su, yolların inşası layihələridir. "Sovetski" adlanan ərazinin abadlaşacağını, yeni gözəl istirahət məkanının yaradılacağını qeyd edən dövlətimizin başçısı sosial-infrastruktur layihələrinin icra olunduğunu, modul tipli 3 məktəbin tikildiyini, əlavə 12 belə məktəbin inşasının nəzərdə tutulduğunu söyləyib. Bu ilin birinci rübündə 13 tibb müəssisəsi də tikilib və ya əsaslı təmir edilib. Bu il Abşeron və Ağcabədi olimpiya komplekslərinin istifadəyə verilməsi nəzərdə tutulub.

Bölgələrdə məşğulluğun artırılmasının daim diqqətdə saxlanılmasının vacibliyini bildirən dövlətimizin başçısı sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesinin davam edəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, xarici sərmayələrin cəlb edilməsi ilə bağlı daha fəal iş aparılmalıdır. Bu il Quba və Mingəçevirdə "ASAN xidmət" mərkəzlərinin açılacağını deyən Prezident İlham Əliyev Şəki və İmişlidə də belə mərkəzlərin binalarının tikintisinin aparıldığını diqqətə çatdırıb.

Sonda dövlətimizin başçısı bu ilin sonuna qədər müsbət dinamikanın saxlanılmasının vacibliyini vurğulayıb.

# Ədliyyə naziri Goranboy rayonunda vətəndaşları qəbul edib

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Aprelin 26-da ədliyyə naziri Fikrət Məmmədov Goranboy rayonu Heydər Əliyev Mərkəzində Goranboy və Xocalı rayonlarından və Naftalan şəhərindən olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir və Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Səfər zamanı ədliyyə naziri Goranboy və bu rayonda yerləşən Xocalı rayon məhkəmələri və ədliyyə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış



olub, hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir ölkə Prezidentinin cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının müstəsna əhəmiyyətini vurğulayaraq, vətəndaşların azadlıq hüququnun qorunmasına xidmət edən azadlıqdan məhrumetməyə alternativ qətimkan tədbirlərinin və cəzaların tətbiqinin genişləndirilməsini, habelə şəffaflığın, məhkəmə qərarlarının ədalətliliyinin təmin olunmasının vacibliyini, eləcə də qərəzli yanaşmanın, korrupsiyaya şərait yaradan halların yolverilməzliyini qeyd edib, aidiyyəti tövsiyə və tapşırıqlar verib.

Eyni zamanda, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, rüşvətxorluğa, qanunsuz tələblərə və digər neqativ hallara son qoyulması, hər bir məmurun təvazökar olması ilə bağlı dövlət başçısının tələbləri diqqətə çatdırılaraq etik davranış qaydalarına dönmədən əməl olunması, vətəndaşlara daha həssas və qayğı ilə yanaşılması vurğulanıb.

# Məhkəmə-Hüquq Şurasının geniş iclası keçirilib

**Aprelin 11-də Məhkəmə-Hüquq Şurasının bütün apellyasiya məhkəmələri sədrlərinin və hakim assosiasiyaları rəhbərlərinin iştirakı ilə geniş iclası keçirilib.**

Tədbirdə çıxış edən Şuranın sədri, ədliyyə naziri Fikrət Məmmədov dünyanı iqtisadi böhran bürüdüyü şəraitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı inkişafının təmin olunduğunu, sosial və iqtisadi layihələrin uğurla icra edildiyini məmnunluqla diqqətə çatdırıb.

Qeyd olunub ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş insan haqlarının prioritetliyi və humanizm siyasətinə sadiqlik ölkəmizdə dövlət idarəçiliyinin əsas prinsiplərinə çevrilib. Möhtərəm Prezidentimiz tərəfindən 3.800-dən çox, o cümlədən ötən ay 423 məhkum əfv edilib, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktı 40 min insana şamil olunub. Ölkə Prezidentinin təşəbbüsü ilə ötən il iqtisadi sahədə bəzi əməllərin dekriminallaşdırılması ilə bağlı cinayət qanunvericiliyinə mühüm dəyişikliklər edilərək, 1500-dək məhkum cəza çəkməkdən azad olunub, yaxud cəza müddətləri azaldılıb. Bu baxımdan dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı 10 fevral 2017-ci il tarixli Sərəncamının müstəsna əhəmiyyəti qeyd olunub.

İclasda Sərəncamın icrası üzrə tədbirlər müzakirə olunub, onun ölkəmizdə insan haqlarının,



xüsusilə azadlıq hüququnun təmin edilməsi, habelə məhkəmə, prokurorluq və istintaq orqanlarının fəaliyyətinin yeni tələblər səviyyəsində qurulması üçün "yol xəritəsi" olduğu vurğulanıb. Həbs qətimkan tədbirinin seçilməsinə yanaşmanın köklü surətdə dəyişməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin müstəsna hallarda seçilməsinə nail olunması Sərəncamın əsas məqsədlərindən biri kimi müəyyən edilib.

Bildirilib ki, Ali Məhkəmə tərəfindən həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə təcrübəsi əvvəllər ümumiləşdirilib, məsələyə həssaslıqla yanaşılması məhkəmələrə tövsiyə edilib. Bu sahədə kobud pozuntulara görə Məhkəmə-Hüquq Şurası tərəfindən 15 hakim ciddi intizam məsuliyyətinə cəlb edilib, 3 hakimin səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul

olunub. Bununla belə köklü dönüş baş verməyib, həbs qətimkan tədbirinin seçilməsinə üstünlük verilməklə, alternativ tədbirlərə lazımi diqqət yetirilməyib.

Qeyd olunub ki, məhkəmələrdə baxılan cinayət işlərinin və bütövlükdə məhkumetmənin sabitliyi ölkəmizdə ictimai təhlükəsizliyin və hüquq qaydasının təmin edilməsində önəmli nailiyyətdir. Lakin təəssüf ki, barəsində həbs qətimkan tədbiri seçilən və həbs müddəti uzadılan, habelə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş şəxslərin sayı xeyli artıb. Bununla əlaqədar həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətinin uzadılması ilə bağlı təcrübə Ali Məhkəmə tərəfindən ümumiləşdirilərək bu günlərdə Plenumun geniş iclasında müzakirə olunub, bu sahədə mövcud nöqsanların aradan qaldırılması və vahid məhkəmə təcrübəsinin yaradılması məqsədilə bütün məhkəmələrə icmal məktubunun göndərilməsi qərara alınıb.

Həmçinin, Şurada Sərəncamda verilmiş tapşırıqların icrası məqsədilə yaradılmış Ali Məhkəmə, Baş Prokurorluq və Ədliyyə Nazirliyinin birgə işçi qrupunun məlumatı dinlənilib. Cəza siyasətinin humanistləşdirilməsi üzrə cinayət qanunvericiliyinə 200-dən artıq dəyişikliyin edilməsi, o cümlədən iqtisadi sahədə törədilən bir çox cinayətlərin dekriminallaşdırılması, azadlıqdan məhrumetməyə alternativ cəzaların nəzərdə tutulması ilə bağlı, habelə şərti məhkum etmə və cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institutlarının, həbsə alternativ olan qətimkan tədbirlərinin daha geniş tətbiqinə imkan verən dəyişikliklərin edilməsi barədə hazırlanmış mühüm qanun layihəsi ətraflı müzakirə edilib.

Eyni zamanda bildirilib ki, Sərəncamda nəzərdə tutulmuş tövsiyə və tapşırıqların dərhal icrasına başlanılması nəticəsində 450-yə yaxın həbsdə olan şəxs qanuni əsaslarla istintaq təcridxanalarından azadlığa buraxılıb, təcridxanalara daxil olan həbs edilmiş şəxslərin sayı xeyli azalıb.

Ali Məhkəmənin sədri Ramiz Rzayev və digər Şura üzvləri iclasda çıxış edərək Sərəncamın insan haqlarının, xüsusilə azadlıq hüququnun qorunmasında, ədalətli cəza siyasətinin formalaşdırılmasında proqram xarakteri daşıdığını bildiriblər.

İclasda Sərəncamın dürüst icrasının təmin edilməsi məqsədilə hakimlərin və istintaq orqanlarının məsuliyyətinin yüksəldilməsi, yol verilən pozuntulara qarşı barışmaz münasibət göstərilməsi, həbs qətimkan tədbirinin seçilməsi təcrübəsinin mütəmadi təhlil olunaraq ümumiləşdirilməsi, həbs müddətinin uzadılmasına yeni, təsirli nəzarət mexanizmlərinin işlənilməsinin və ədalətli cəza siyasəti formalaşmasının zəruriliyi vurğulanıb.

Şurada ötən il məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyə məhkəmə hakimiyyətinin özünüidarə səlahiyyətlərinin daha da genişləndirilməsi ilə bağlı mütərəqqi dəyişikliklər edilməsi, o cümlədən məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən olunması səlahiyyətinin Məhkəmə-Hüquq Şurasına həvalə edilməsi diqqətə çatdırılıb.

Bununla əlaqədar iclasda məhkəmələrin ərazi yurisdiksiyası ilə bağlı apellyasiya məhkəmələrinin təklifləri dinlənilib, məhkəmələrin iş yükü üzrə aparılmış təhlillər və onun mütənasibliyi nəzərdən keçirilib, ərazi yurisdiksiyası zəruri dəyişikliklər edilməklə yenidən təsdiq olunub.

İclasda həmçinin, qanunvericiliyin tələblərinin pozulmasına və korrupsiyaya şərait yaradan hallara yol verilməsinə görə 6 hakim barədə intizam icraatı başlanılıb.

# Ali Məhkəmənin Plenumunda

**Aprelin 7-də Ramiz Rzayevin sədrliyi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin növbəti Plenumu keçirilib.**

Plenumda 2015-ci ildə respublikanın birinci instansiya məhkəmələrində "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılmasına dair təqdimatlara və həbs qətimkan tədbirinin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsinə dair vəsatətlərə baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsi üzrə nəticələri müzakirə edilib.

Ali Məhkəmənin sədri Plenum iclasını açaraq bildirib ki, insan hüquqlarının, o cümlədən cinayət





məsuliyyətinə cəlb olunan və məhkum olunmuş şəxslərin hüquqlarının daha etibarlı təmin olunması dövlət başçısının daim diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncamında ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiq olunması qeyd edilib, eyni zamanda ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi zamanı cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi əməl olunması, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaların və qətimkan tədbirlərinin tətbiqinin genişləndirilməsi tövsiyə edilmişdir.



Ali Məhkəmə Plenumunun "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının və İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli 5 saylı və "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 3 noyabr 2009-cu il

tarixli 2 saylı qərarlarında məhkəmələrə tövsiyə olunur ki, şəxsin məhkəməyə gəlməyə təminatların mövcud olduğu təqdirdə, onun azadlıqda qalmasına üstünlük verilməli, həbs qətimkan tədbirinə müstəsna tədbir kimi baxılmalı, məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız qanunda nəzərdə tutulan əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

Plenumda birinci instansiya və apelyasiya məhkəmələri sədrlərinin və hakimlərinin, istintaq qurumlarının rəhbərlərinin iştirakı ilə aparılmış ümumiləşdirmənin nəticələri geniş müzakirə olunub, təhlillər aparılıb.

Müəyyən edilib ki, məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara və həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi haqqında vəsatətlərə əsasən qanunvericiliyin tələblərinə uyğun olaraq baxılır. Eyni zamanda, məhkəmə təcrübəsində müəyyən nöqsan və qanun pozuntularına yol verilməsi halları da aşkar olunub.

Plenumda müzakirə edilmiş məsələlərlə bağlı məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqində yol verilən səhvlərin aradan qaldırılması, vahid məhkəmə təcrübəsinin yaradılması məqsədi ilə məhkəmələrə icmal məktubunun göndərilməsi qərara alınıb.

Plenumun işində Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə Naziri Fikrət Məmmədov, Baş prokuror Zakir Qaralov, daxili işlər naziri Ramil Usubov, Prezident Administrasiyası Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov müzakirə edilən məsələlərlə bağlı çıxış ediblər.

Nazir F.Məmmədov çıxışında əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və insan hüquqlarının qorunmasına xidmət edən hüquqi islahatların ən mühüm cəhətlərindən biri kimi ölkəmizdə həbs qətimkan tədbirlərinin məhkəmələrə həvalə edildiyini, bu sahədə məhkəmə nəzarətinin təsbit olunduğunu bildirib, həmin məsələyə insan haqları ilə bağlı beynəlxalq sənədlərdə də xüsusi həssaslıqla yanaşıldığını qeyd edərək cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı ölkə Prezidenti İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Sərəncamının müstəsna əhəmiyyətini vurğulayıb. Bildirib ki, Sərəncamın əsas məqsədlərindən biri məhz həbs qətimkan tədbirlərinin seçilməsinə yanaşmanın köklü surətdə dəyişməsidir. Sərəncamda, həmçinin böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbsin seçilməsi əsaslarının məhdudlaşdırılması və onun müstəsna hallarda tətbiqi məsələləri xüsusi qeyd olunur.

Həbs qətimkan tədbirinin tətbiqi təcrübəsinin Ali Məhkəmə tərəfindən əvvəllər ümumiləşdirildiyini bildirən nazir bu sahədə kobud pozuntulara görə 30-dək hakim və prokurorluq işçisinin ciddi intizam məsuliyyətinə cəlb edildiyini, o cümlədən Məhkəmə-Hüquq Şurası tərəfindən 3 hakimin səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi barədə qərar qəbul olunduğunu diqqətə çatdıraraq, bununla belə köklü dönüşə nail olunmadığını, həbs qətimkan tədbirinin seçilməsinə üstünlük verilməklə, alternativ tədbirlərə lazımi diqqət yetirilmədiyini vurğulayıb, bəzi statistik rəqəmləri səsləndirib.

Nazir həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətinin uzadılması ilə bağlı mövcud təcrübədən ətraflı bəhs edərək bu məsələdə hakimlərin və istintaq orqanlarının məsuliyyətinin yüksəldilməsini, həbs qətimkan tədbirinin seçilməsi təcrübəsinin mütəmadi təhlil olunaraq ümumiləşdirilməsini, həbs müddətinin uzadılmasına yeni, təsirli nəzarət mexanizmlərinin işlənilməsinin zəruriliyini vurğulayıb. Bildirib ki, dövlət başçısının Sərəncamı məhkəmə, prokurorluq və istintaq orqanları üçün "yol xəritəsi" olmalı, bu sahədə fəaliyyət yeni tələblər səviyyəsində qurulmaqla bu həssas məsələyə münasibət köklü şəkildə dəyişilməli və vahid məhkəmə-istintaq təcrübəsi formalaşdırılmalıdır.

# Azərbaycan və Əlcəzair arasında əməkdaşlığa dair ilk sənəd imzalanıb



Əlcəzairin Baş naziri Abdelmalek Sellal ilə görüş



Əlcəzairin ədliyyə naziri Əl-Tayyib Louh ilə görüş və iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması



**Ölkəmiz İslam və ərəb dünyası ilə əlaqələrə xüsusi əhəmiyyət verir. Dövlət başçısı tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli"nin elan olunması çərçivəsində dost Əlcəzair Xalq Demokratik Respublikası ilə ikitərəfli münasibətlərin inkişafı məqsədi ilə iki ölkənin Ədliyyə nazirlikləri tərəfindən danışıqlar aparılaraq əməkdaşlıq haqqında Anlaşma Memorandumunun qısa müddətdə layihəsi razılaşdırılıb.**

Həmin sənədin imzalanması üçün Əlcəzairin ədliyyə naziri Əl-Tayyib Louhun dəvəti ilə Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov aprelin 16-18-də nümayəndə heyəti ilə bu ölkədə səfərdə olub.

Nümayəndə heyətinin tərkibinə nazirliyin Qeydiyyat və notariat baş idarəsinin rəisi İlqar Məmmədov, Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi vəzifəsini icra edən Adil Əbilov və Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəis müavini Orxan Qasımov daxil olunublar.

Səfər zamanı ədliyyə nazirlərinin səmimi və dostluq şəraitində keçirilmiş görüşündə əməkdaşlığın perspektivləri müzakirə olunub, hər iki dövlətdə ədliyyə və məhkəmə sistemində aparılan islahatlar ətrafında geniş fikir mübadiləsi aparılıb, ölkəmizdə təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə görülən işlərə və əldə olunan nailiyyətlərə böyük maraq göstərilərək, təcrübə mübadiləsinin aparılmasının hər iki tərəf üçün faydası qeyd olunub.

Sonra nazirliklər arasında məhkəmə, ədliyyə, o cümlədən penitensiar sistemin təkmilləşdirilməsi, elektron ədliyyə, qanunvericilik, ədliyyə işçilərinin və hakimlərin tədrisi sahəsində birgə tədbirlərin keçirilməsini nəzərdə tutan əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb, mətbuat üçün brifinq keçirilib.

Qeyd olunub ki, Azərbaycandan Əlcəzairə nazir səviyyəsində ilk edilən bu səfər tarixi hadisə olmaqla münasibətlərimizin inkişafına təkan verəcək. Eyni zamanda, Anlaşma Memorandumu iki ölkə arasında əməkdaşlığa dair





Mətbuat üçün brifinq








Əlcəzair Ədliyyə Nazirliyinin elektron xidmətləri barədə təqdimat

imzalanan ilk sənəd olmaqla müqavilə-hüquq bazasının təməlini qoyub və qarşılıqlı fəaliyyətin müxtəlif sahələrdə dərinləşməsinə dəyərli töhfə olacaqdır. Əlcəzairli nazir Azərbaycanda gedən proseslərdən məlumatlı olduğunu bildirərək, ölkəmizin sürətli inkişafında, əmin-amanlığın və sabit vəziyyətin təmin olunmasında da ölkə Prezidenti cənab İlham Əliyevin müstəsna rolunu və xidmətlərini vurğulayıb.

Bununla yanaşı, Əlcəzairin Ədliyyə Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərə dair təqdimat keçirilib, bu sahədə təcrübə mübadiləsi aparılıb, Azərbaycanın brendi olan və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi ASAN xidmətin vətəndaş məmnunluğunu təmin edən fəaliyyəti barədə məlumat verilib.

Səfər zamanı Əlcəzairin Baş naziri Abdelmalek Sellal ilə görüş keçirilib. İki ölkənin din və mədəniyyət kimi ortaq dəyərlərə malik olduğunu söyləyən Baş nazir hazırkı səfərin və imzalanmış sənədin mühüm əhəmiyyətini qeyd edib, Əlcəzairin Azərbaycanla bütün istiqamətlərdə, xüsusilə iqtisadi, hüquqi, ticarət, neft-qaz və mədəniyyət sahələrində əməkdaşlığın aparılmasında maraqlı olduğunu bildirib, bunun üçün böyük potensialın mövcudluğunu vurğulayıb. Baş nazir ölkəsinin Afrikada nüfuza malik olduğunu bildirərək qitə ölkələri ilə əlaqələrin inkişafında Azərbaycana



Əlcəzairin Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə görüş

kömək etməyə hazır olduğunu söyləyib.

Görüşdə Azərbaycanda ədliyyə və məhkəmə sistemində aparılan islahatlara maraq göstərilib, bu sahədə təcrübə mübadiləsinin hər iki tərəf üçün faydası qeyd edilib.

Ədliyyə naziri F.Məmmədovun Əlcəzairin Ali Məhkəməsinin sədri və Baş prokuroru ilə də görüşü olub. Görüşdə ədalət mühakiməsinin səmərəliliyi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmənin tətbiqi, hakimlərin seçimi və tədrisi müzakirə edilib, ikitərəfli




Əlcəzairin Ali Hakimlər və Prokurorlar Məktəbi ilə tanışlıq





Əlcəzairin Həbsxana əməkdaşlarının Milli Məktəbi ilə tanışlıq




Əlcəzairin yeni inşa olunmuş müasir penitensiar kompleksi ilə tanışlıq

əməkdaşlığın genişləndirilməsinə böyük maraq göstərilib, məhkəmənin binası ilə tanış olunub.

Eyni zamanda, Ali Magistratlar (Hakimlər və Prokurorlar) Məktəbinə səfər edilərək həmin qurumun fəaliyyəti, hakimlərin və prokurorların ilkin və davamlı tədrisi prosesi ilə tanış olunub, əməkdaşlığa dair faydalı danışıqlar aparılıb.

Azərbaycan Prezidentinin tapşırığına əsasən penitensiar sistemin təkmilləşdirilməsi, infrastrukturun yenilənməsi ilə bağlı islahatların həyata keçirildiyi nəzərə alınaraq ölkəmizin nümayəndə heyəti, həmçinin Əlcəzairin yeni inşa olunmuş müasir penitensiar kompleksinə baş çəkərək qurumun fəaliyyəti, məhkumların saxlanma şəraiti, habelə probasiya xidməti, eləcə də Həbsxana Əməkdaşlarının Milli Məktəbində penitensiar xidmət üçün kadrların hazırlanması sistemi ilə maraqlanıb, bu sahədə faydalı təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti, həmçinin Əlcəzairin Milli Notariuslar Palatasının fəaliyyəti ilə tanış olaraq səmərəli fikir mübadiləsi aparıb, Azərbaycanın notariat institutuna maraq göstərilib.

Bütün görüşlərdə həmsöhbətlərin diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrinə, torpaqlarımızın 20%-nin işğalı və bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi faktına cəlb olunmaqla, münaqişəyə dair broşürlər və digər əyani vəsaitlər təqdim edilib.

Tədbirlərdə ölkəmizin Əlcəzairdəki səfiri Mahir Əliyev fəal iştirak etməklə, səfərin yüksək səviyyədə keçməsinə gərgin əmək sərf edib.

# Azərbaycan-Latviya: hüquqi əlaqələr genişlənir





**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində genişmiqyaslı islahatların həyata keçirildiyi və nəticələrin əldə olunduğu nəzərə alınaraq Latviya Respublikası Ədliyyə Nazirliyinin dövlət katibi Rayvis Kronberqsin başçılıq etdiyi nümayəndə heyəti hüquqi əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsi məqsədilə aprelin 25-28-də ölkəmizdə səfərdə olub.**

Qonaqlar əvvəlcə Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılaraq, məzarı üzərinə tər çiçəklər düzülüb. Nümayəndə heyəti həmçinin, Şəhidlər Xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarlarını ziyarət edərək Əbədi məşəl abidəsi önünə əklil qoyub.



Təkbətək görüş

Sonra ədliyyə naziri Fikrət Məmmədovun Latviyanın ədliyyə üzrə dövlət katibi R.Kronberqs ilə görüşü keçirilib.



Geniş tərkibdə görüş

Görüşdə Azərbaycan və Latviya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin möhkəmlənməsində dövlət başçılarının xüsusi rolu vurğulanıb, ədliyyə və məhkəmə sistemində aparılan islahatlar barədə faydalı fikir mübadiləsi aparılıb, hüquqi əlaqələrin genişləndirilməsinə maraq göstərilərək nazirliklər arasında əməkdaşlığa dair sənədin imzalanması barədə razılıq əldə olunub. Həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı həqiqətləri diqqətə çatdırılıb.



Məhkəmə-Hüquq Şurasında



Ali Məhkəmədə

R.Kronberqs səfər zamanı ölkəmizin hərtərəfli inkişafının şahidi olduğunu vurğulayıb, məhkəmə-hüquq sistemindəki yenilikləri maraqla qarşılayıb.

Latviyalı qonaqların, həmçinin ədliyyə nazirinin müavini Toğrul Musayev və nazirliyin aidiyyəti struktur qurumlarının rəhbərləri ilə keçirilmiş geniş tərkibdə görüşündə ədliyyə sistemi, nazirliyin müxtəlif fəaliyyət istiqamətləri ilə bağlı ətraflı müzakirələr aparılıb, qarşılıqlı fəaliyyətin genişləndirilməsinin və təcrübə mübadiləsinin əhəmiyyəti qeyd olunub.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Tədbirdə Latviyanın ölkəmizdəki səfiri Yuris Maklakovs iştirak edib.

Həmin gün Latviya nümayəndə heyətinin Ali Məhkəmədə, Məhkəmə-Hüquq Şurasında, Hakimlərin Seçki Komitəsində və Ədliyyə Akademiyasında görüşləri keçirilib. Eyni zamanda, qonaqlar ölkəmizdə məhkəmə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlərə maraq göstərərək Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin müasir binası və elektron məhkəmə sisteminin tətbiqi ilə tanış olublar.

Səfər çərçivəsində latviyalı qonaqlar, həmçinin bölgələrdə inşa olunmuş yeni məhkəmə bina və kompleksləri, yerli və regional ədliyyə qurumlarının, müasir penitensiar müəssisələrin fəaliyyəti, habelə Azərbaycan brendi olan və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzləri, eləcə də respublikamızın tarixi və mədəni abidələri, o cümlədən Heydər Əliyev Mərkəzi ilə tanış olublar.








Paytaxtda və bölgələrdə müasir məhkəmə kompleksi və binaları, yerli və regional ədliyyə qurumlarının, yeni peniensiar müəssisənin fəaliyyəti ilə tanışlıq





# İndoneziya ölkəmizlə hüquqi sahədə əməkdaşlıqda maraqlıdır

**Azərbaycan və İndoneziya arasında əlaqələrin uğurla inkişafı çərçivəsində hüquqi əməkdaşlığın genişləndirilməsinə böyük önəm verilir. Aprelin 5-də İndoneziyanın hüquq və insan haqları naziri Yasonna H.Laolinin respublikamızda yolüstü səfərdə olarkən Heydər Əliyev Beynəlxalq Hava Limanında ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşü keçirilib.**



İndoneziyalı nazir görüşdə ölkəsində hüquq sistemində islahatların aparıldığı nəzərə alınaraq qabaqcıl təcrübələri öyrəndiklərini bildirib, Azərbaycanda da bu sahədə görülən işlərə maraq göstərib.

Nazir müavini möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən hüquq təsisatlarına müraciət imkanlarının asanlaşdırılması, elektron xidmətlərin və ictimai iştirakçılığın tətbiqi, xüsusilə Azərbaycan brendi olan və vətəndaş məmnunluğunu təmin edən "ASAN xidmət"in səmərəli fəaliyyəti barədə ətraflı məlumat verib. Qonağa islahatlara dair ingilis dilində broşürlər təqdim olunub.

Ölkəmizin bu sahədə nailiyyətlərini məmnunluqla qarşılayan nazir Yasonna H.Laoli müsbət təcrübəmizin İndoneziya üçün faydalı olduğunu vurğulayıb, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verərək əlaqələrin genişləndirilməsinə hazır olduğunu bildirib.

Söhbət zamanı əməkdaşlığın perspektivləri müzakirə olunub, ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi ilə bağlı konkret təkliflər irəli sürülüb.

Tədbirdə İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan Bəy Fanani iştirak edib.

# Beynəlxalq təşkilatların təmsilçiləri ilə görüşlər

**Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı çərçivəsində Ədliyyə Nazirliyi ilə birgə həyata keçirilən "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünü-idarəetməyə dəstək" layihəsinin icrası başa çatıb.**

Bununla əlaqədar AŞ İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğu tərəfindən Bakıda yekun konfrans və Rəhbər Komitənin iclası keçirilərək layihənin nəticələri və gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

Bildirilib ki, Avropa Şurasının fəal dəstəyi və ekspertlərinin yaxından iştirakı ilə keçirilmiş layihə çərçivəsində 5 pilot məhkəməsi müəyyən olunaraq məhkəmə statistikası və məhkəmələrdə vaxtın idarə olunması sahəsində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətlərinin tətbiqi ilə bağlı tədbirlər görülüb, məhkəmələrdə məmnuniyyət sorğularının keçirilməsi ilə bağlı ayrı-ayrı ölkələrin təcrübəsi öyrənilməklə pilot məhkəmələrdə vətəndaşlar, məhkəmə işçiləri və vəkillər arasında belə sorğular keçirilib. Həmçinin, Ədliyyə Akademiyasında hakimlər və məhkəmə aparatı işçiləri üçün təlimlər təşkil olunaraq ümumilikdə 180 nəfər "Məhkəmələrdə idarəetmənin səmərəliliyinin artırılması" və digər mövzular üzrə ixtisasartırma kurslarına cəlb edilib, habelə hazırda təlim keçən hakimliyə namizədlərin proqramına müvafiq mühazirələr daxil edilərək tədris olunub.

Aprelin 5-də həmin tədbirlərdə iştirak etmək üçün ölkəmizdə səfərdə olan AŞ Ədliyyə və Hüquqi Əməkdaşlıq bölməsinin rəhbəri xanım







Hanne Yunkerin başçılıq etdiyi nümayəndə heyəti ilə ədliyyə nazirinin müavini Azər Cəfərovun görüşü keçirilib.

Avropa Şurası və onun struktur qurumları, o cümlədən CEPEJ ilə səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə edən nazir müavini ötən dövrdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsinə xidmət edən qanunvericilik və institusional islahatlar və yeniliklər barədə məlumat verib, dövlətimizin başçısının cari ilin fevralında imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamının önəmini qeyd edərək bu mühüm sənədin məhkəmə və penitensiar sahələrdə əməli tədbirlərin görülməsi üçün "yol xəritəsi" olduğunu vurğulayıb.

Bildirilib ki, məhkəmə-hüquq sahəsində Avropa Şurası ilə sıx əməkdaşlığın təzahürü olaraq adıçəkilən layihənin uğurlu icrası həyata keçirilən islahatlara dəyərli töhfədir və gələcək əməkdaşlıq üçün bir çox prioritetlər üzrə yeni perspektivlər mövcuddur.

Avropa Şurasının ölkəmizlə sıx əməkdaşlığını qeyd edən xanım H.Yunker Azərbaycanda məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə bağlı islahatlara xüsusi diqqət yetirilməsini alqışlayıb, Ədliyyə Nazirliyi, o cümlədən Ədliyyə Akademiyası ilə səmərəli qarşılıqlı fəaliyyəti vurğulayıb. Birgə layihənin uğurlu nəticələrindən danışan qonaq layihə çərçivəsində pilot məhkəmələrin fəal qatılaraq tədbirlərdə həvəslə iştirak etdiklərini, həmçinin keçirilmiş təlimlərin səmərəsini qeyd edib.

Xanım H.Yunker AŞ-nın əlaqələrin bundan sonra da davam etdirilməsinə və yeni layihələrin təşviqinə hazır olduğunu vurğulayıb.

Görüşdə ədalət mühakiməsinin effektivliyinin artırılması, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi, məhkəmələrdə iş yükünün azaldılması, mediasiya institutunun tətbiqi və digər maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, bir sıra konkret təkliflər irəli sürülüb.

Tədbirdə Avropa Şurası Bakı Ofisinin rəhbəri xanım Draqana Filipoviç iştirak edib.



**Aprelin 6-7-də Bakıda "Hilton" mehmanxanasında Ədliyyə Nazirliyinin, Rusiya Federal Notariat Palatasının və Almaniyanın Kil Universitetinin birgə təşkilatçılığı ilə "Xarici elementli vərəsəlik işlərində notariusların iştirakı" mövzusunda beynəlxalq seminar keçirilib.**

Tədbirdə Rusiya Federal Notariat Palatasının prezidenti Konstantin Korsik və bəzi regional palataların rəhbərləri, Kil Universitetinin alimləri, nazirliyin və Ədliyyə Akademiyasının nümayəndələri, üç ölkənin notariusları iştirak ediblər.

Seminarda mülki hüququn mühüm sahələrindən biri olan vərəsəlik institutunun müxtəlif ölkələrdə tətbiqinin xüsusiyyətləri, elektron notariat informasiya sistemləri barədə ətraflı məlumat verilib, təqdimatlar keçirilib. Azərbaycanın bu sahədə müsbət təcrübəsinə böyük maraq göstərilib.





Səfər çərçivəsində Rusiya nümayəndə heyətinin ədliyyə nazirinin müavini Toğrul Musayevlə görüşü keçirilib.

Görüşdə bu günlərdə Azərbaycan və Rusiya arasında diplomatik münasibətlərin yaradılmasının 25-ci ildönümünün qeyd olunduğu vurğulanaraq ötən dövrdə əlaqələrimizin xalqlarımız arasında çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi bildirilib, bütün istiqamətlərdə, o cümlədən hüquqi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

Nazir müavini T.Musayev möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ədliyyə sisteminin, o cümlədən notariat orqanlarının müasirləşdirilməsi üzrə aparılan islahatlar, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, notarius korpusunun şəffaf prosedurlar əsasında formalaşdırılması, xüsusi notariat institutunun və elektron notariatın inkişafı barədə məlumat verib.

Rusiya Federal Notariat Palatasının prezidenti səfər zamanı respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduğunu vurğulayıb, notariat institutunun inkişafı üzrə əldə edilmiş nailiyyətlərə böyük maraq göstərərək təcrübə mübadiləsinin hər iki tərəf üçün əhəmiyyətini qeyd edib.

Söhbət zamanı qarşılıqlı fəaliyyətin perspektivləri və maraq doğuran məsələlər müzakirə olunub.

Qonaqlar nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olublar.

Səfər zamanı nümayəndə heyəti, həmçinin Azərbaycan brendi olan və ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzinin vətəndaş məmnunluğunu təmin edən innovativ fəaliyyəti ilə yaxından tanış olub.





**Azərbaycanda səfərdə olan BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin üzvü, beynəlxalq ekspert xanım Pramila Pattenin aprelin 18-də ədliyyə nazirinin  müavini Toğrul Musayev ilə görüşü olub.**

Ölkəmizin BMT və onun strukturları ilə səmərəli əməkdaşlığını qeyd edən nazir müavini xanım P.Pattenlə əvvəlki görüşünü xatırladıb, Azərbaycanda Avropa dəyərləri, həmçinin Şərqin mütərəqqi ənənələri əsasında məqsədyönlü gender siyasətinin həyata keçirildiyini, qadınların ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində fəal iştirakını vurğulayıb, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə görülən tədbirlərdən və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətindən, habelə BMT-nin müvafiq Konvensiyası üzrə tövsiyələrin icrasından bəhs edib. Həmçinin insan haqlarının, o cümlədən qadın hüquqlarının qorunmasında ədalət mühakiməsinin rolu qeyd olunaraq ədliyyəyə çıxış imkanlarının asanlaşdırılması üzrə görülən işlər barədə məlumat verilib.

Respublikamıza növbəti dəfə səfərindən məmnunluğunu ifadə edən qonaq Komitənin üzvü kimi ölkəmizlə uzun müddətdir faydalı əməkdaşlıq etdiyini, Azərbaycan Hökumətinin beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə hər zaman həssas münasibət göstərdiyini vurğulayıb, gender siyasəti üzrə həyata keçirilən davamlı tədbirlərin, bu sahədə əldə edilən nailiyyətlərin təqdirəlayiq olduğunu qeyd edib. O, məişət zorakılığının qarşısının alınması sahəsində yeni mexanizmlərin hazırlanması ilə bağlı tövsiyələri diqqətə çatdırıb.

P.Patten ölkəmizin məhkəmə-hüquq sistemindəki nailiyyətlərini, o cümlədən elektron məhkəmənin tətbiqini və ədliyyə infrastrukturunun müasirləşdirilməsini yüksək qiymətləndirib, gələcəkdə də əməkdaşlığa hazır olduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.





**Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı əsasında həyata keçirilən "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi çərçivəsində Bakıda keçirilən konfransda iştirak etmək üçün səfərdə olan AŞ-nin Demokratik idarəetmə üzrə direktoru xanım Klaudia Luçiani ilə aprelin 18-də ədliyyə nazirinin müavini Toğrul Musayevin görüşü keçirilib.**

Ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafı üzrə görülən tədbirlərdən danışan nazir müavini qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün hər cür

şəraitin yaradıldığını, bu sahədə beynəlxalq tövsiyələr nəzərə alınmaqla qanunvericilik bazasının formalaşdırıldığını, o cümlədən xarici donorlar tərəfindən ölkə ərazisində qrantların verilməsi prosedurunda "bir pəncərə" prinsipinin tətbiqini vurğulayaraq layihə çərçivəsində nazirliyin Avropa Şurası ilə qarşılıqlı fəaliyyətini qeyd edib.

Xanım K.Luçiani birgə həyata keçirilən "Vətəndaş cəmiyyəti dialoqu" layihəsi üzrə görülən işlər və konfrans barədə məlumat verərək Avropa Şurasının ekspertlərinin QHT-lərə dair hazırladığı hesabatla bağlı Azərbaycan tərəfi ilə maraqlı müzakirələrin aparıldığını bildirib.

Konstruktiv dialoq şəraitində keçən görüşdə vətəndaş cəmiyyətinin inkişafı, elektron xidmətlərin tətbiqi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və s. məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib.

Tədbirdə AŞ-nın Bakıdakı Ofisinin rəhbəri xanım Draqana Filipoviç iştirak edib.

# Ədliyyə Akademiyasının məlumatları




**Ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən islahatlar çərçivəsində hakimlərin tədrisinə xüsusi diqqət yetirilərək, bu sahədə Avropanın ən mütərəqqi modellərindən istifadə edilir, hakimlərlə sorğular keçirilərək onların tədrisinə ehtiyac bildikləri sahələr və mövzular öyrənilməklə tədris proqramları hazırlanır və Ədliyyə Akademiyası tərəfindən, o cümlədən beynəlxalq təşkilatlarla birgə mütəmadi tədris tədbirləri keçirilir.**

Cari ilin aprel ayında Akademiya tərəfindən birinci instansiya və apellyasiya məhkəmələrinin hakimləri üçün müxtəlif mövzularda təlim tədbirləri, seminarlar təşkil olunub.

Məhkəmə ekspertizası mərkəzində "Yeni növ məhkəmə ekspertizaları və Məhkəmə ekspertizası mərkəzinin müasir texniki imkanları" mövzusunda keçirilmiş ixtisasartırma kursunda 15-ə yaxın hakim iştirak edib, ekspertizaların təşkili və aparılması: problemlər və həlli yolları, bu sahədə beynəlxalq standartların tələbləri, əqli mülkiyyət obyektlərinin, kontrafakt məhsulların məhkəmə ekspertizası, məhkəmə kompüter-texniki ekspertizası, məhkəmə tikinti-texniki ekspertizasının aparılmasında yerli baxışın keçirilməsi və mütəxəssis rəyinin təqdim edilməsi ilə bağlı problemlər üzrə mövzular tədris olunub və mərkəzin müasir texniki imkanları ilə əyani tanışlıq aparılıb.

Həmçinin Amerika Birləşmiş Ştatları Patent və Ticarət Markası İdarəsi tərəfindən ABŞ-ın Azərbaycandakı Səfirliyinin vasitəçiliyi ilə "Hyatt Regency" mehmanxanasında "Əqli Mülkiyyət Hüquqları üzrə Məhkəmə Dialoqu" mövzusunda seminar keçirilib.

Apellyasiya və birinci instansiya məhkəmələrindən 14 hakimin iştirak etdiyi seminarda Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində qanunvericiliyi və bu sahədə meydana çıxan praktiki problemlər mövzusunda təqdimatlar dinlənilib. Əqli mülkiyyətin qorunmasının vacibliyi, ABŞ və Azərbaycanın hüquq sistemlərinə baxış, ABŞ və Azərbaycanın mövcud əqli mülkiyyət qanunvericiliyinə baxış, ticarət sirləri, əqli mülkiyyət cinayətlərinin istintaqı və araşdırılması, elektron sübutların toplanması və istifadəsi, aktivlərin müsadirəsi, mübahisələrin alternativ həlli kimi məsələlər hakimlərin diqqətinə çatdırılaraq mövzu ilə bağlı kazuslar müzakirə edilib və çalışmalar həll edilib. Yekunda hakimlərə müvafiq sertifikatlar təqdim olunub.

Avropa Şurasının və Ədliyyə Akademiyasının birgə əməkdaşlığı ilə "Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu (İfadə azadlığı) və 11-ci (Yığıncaqlar və birləşmək azadlığı) maddələri" mövzusunda keçirilmiş təlimdə isə ifadə, yığıncaqlar və birləşmək azadlığı hüququnun anlayışı, xüsusiyyətləri, əhatə dairəsi, dövlətin pozitiv və neqativ öhdəlikləri, bu hüquqların həyata keçirilməsinə qoyulan məhdudiyyətlər kimi məsələlərlə bağlı mühazirələr oxunub, mövzular üzrə kazuslar müzakirə edilib.

***

Bununla yanaşı, beynəlxalq standartlara uyğun,




tam şəffaf şəraitdə seçilmiş 126 nəfər hakimliyə namizədlə Ədliyyə Akademiyasında keçirilən kurs davam edir. Kurs zamanı namizədlərin hakim olmaq üçün lazımi nəzəri biliyə və peşə hazırlığına yiyələnmələrinə diqqət yetirilir.

Hakimlərin Seçki Komitəsi tərəfindən təsdiq olunmuş və bir il ərzində davam edən proqram auditor məşğələlərdən və məhkəmələrdə stajkeçmədən ibarətdir. İlkin mərhələdə üç aylıq auditor məşğələlər tamamlanıb və namizədlərin Bakı Ağır Cinayətlər və İnzibati İqtisadi məhkəmələrdə stajkeçmələri və bir sıra dövlət orqanlarının fəaliyyəti ilə tanışlıq tədbirlərinin təşkili nəzərdə tutulub.

Eyni zamanda, namizədlərin dünyagörüşünün artırılması məqsədilə 5 mədəni proqram təşkil edilib. Namizədlər Heydər Əliyev Mərkəzi, Azərbaycan Milli Tarix muzeyi, Ədliyyə Nazirliyində Heydər Əliyev Muzeyi və Azərbaycan ədliyyəsinin tarixi muzeyi ilə tanış olub, Azərbaycan Akademik Milli Dram teatrında tamaşaya baxıblar.

Namizədlərin, həmçinin beynəlxalq təcrübəni öyrənmələrinə xüsusi diqqət yetirilərək onlar üçün Türkiyə Ədliyyə Akademiyasında 2 həftəlik və Fransanın Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinin öyrənilməsi məqsədilə 2 günlük təlim səfərləri təşkil edilib.

**Ölkəmizdə yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə çatımlığı, onların əmək və mənzil hüquqlarının müdafiəsi, yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsi həyata keçirilərkən, həmçinin müxtəlif icra hərəkətləri aparılarkən onların hüquqlarının müdafiəsinin gücləndirilməsi, psixoloji aspektlərinin nəzərə alınması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Ədliyyə Akademiyasında aprelin 17-dən 21-dək icra məmurları üçün "Yuvenal ədliyyə" mövzusunda növbəti təlim keçirilib.**



Təlim proqramına "Yuvenal ədliyyənin inkişafında UNİCEF-in rolu", "Yuvenal ədliyyənin psixoloji əsasları", "Yetkinlik yaşına çatmayan uşaqlarla ünsiyyət qurma yolları (dindirilmə məhkəmə prosesi zamanı, məhkəmə icraçıları və s.)", "BMT-nin yetkinlik yaşına çatmayanlara münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsinə aid olan Minimal standart qaydaları (Pekin Qaydaları) və Azərbaycan qanunvericiliyi", "Yetkinlik yaşına çatmayanlarla bağlı mülki məhkəmə qərarlarının icrasının xüsusiyyətləri", "Yetkinlik yaşına çatmayanların əmək və sosial təminat hüquqları", "Azərbaycanda yuvenal ədliyyə sahəsində qeyri məhkəmə orqanları və təşkilatları", "Yetkinlik yaşına çatmayanlara münasibətdə məhkəmə baxışının xüsusiyyətləri", "Yuvenal ədliyyə Azərbaycanda: nəzəri və təcrübi problemləri", "Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının profilaktikası", "Yetkinlik yaşına çatmayanlar barəsində təyin edilmiş azadlıqdan məhrum etmə cəzalarının icrasının xüsusiyyətləri", "Yetkinlik yaşına çatmayanlar barəsində ibtidai istintaqın xüsusiyyətləri", "Yetkinlik yaşına çatmayanların inzibati məsuliyyəti və inzibati hüquq pozuntularının profilaktikası", "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar və yuvenal ədliyyə", "Yetkinlik yaşına çatmayanların iştirakı ilə məhkəmə qərarlarının icrasının xüsusiyyətləri" mövzuları daxil edilərək Ədliyyə Akademiyasının müəllim heyəti və Nazirliyin digər aidiyyəti idarələrinin məsul əməkdaşları tərəfindən tədris olunub.

Kursda 20 nəfər dinləyici iştirak edib.

İcra məmurları üçün aprelin 26-28-də Akademi-

yada keçirilmiş qısamüddətli təlimlər isə "İcra işinin təkmilləşdirilməsinin aktual məsələləri" və "Etika və ünsiyyət" mövzularına həsr olunub.

40-a yaxın dinləyicinin iştirak etdiyi təlimlərdə Akademiyanın və Nazirliyin İcra baş idarəsinin məsul əməkdaşları tərəfindən tədris kursunun proqramına müvafiq olaraq "Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə qərarlarının icrası məsələsinə Avropa Konvensiyası baxımından münasibəti", "Yerli icra qurumlarında kargüzarlıq işinin təşkili", "Məhkəmə qərarını qərəzli olaraq icra etməyən borclu şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi haqqında materialların toplanmasına dair tələblər", "Probasiya (azadlıqdan məhrumetməyə alternativ sanksiyaların tətbiqi)", "İcra məmurları tərəfindən yol verilən xarakterik nöqsanlar və onların aradan qaldırılması üzrə görülən tədbirlər", "Azərbaycan Respublikası icra qanunvericiliyində son illərdə edilmiş dəyişikliklər və onların mahiyyəti" və s. mövzular tədris olunub.

Eyni zamanda, "Ünsiyyətin anlayışı. Ünsiyyət prosesində insanların biri digərini qavraması və anlaması. İlk təəssürat və onun əhəmiyyəti", "Ünsiyyət prosesində psixoloji təsir məsələləri. Ünsiyyəti asanlaşdıran və çətinləşdirən amillər", "Şəxsiyyətin özünütənzimi. Distress və onunla mübarizə aparmanın yolları", "Şəxsiyyətlərarası qarşılıqlı münasibətlər. Konfliktlər və onların həlli metodları", "Ədliyyə orqanları işçilərinin etik davranış Qaydalarının tələbləri və bu Qaydaların pozulmasına görə məsuliyyət", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması" mövzuları dinlənilib.

**Ədliyyə Akademiyası tərəfindən Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının bir hissəsi olan "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" adlı layihənin icrası çərçivəsində Bakı şəhəri və regionlarda silsilə təlimlər keçirilir.**

Bununla əlaqədar, aprelin 20-21-də Bakıda vəkillər üçün Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü (İşgəncələrin qadağan olunması) və 5-ci maddələri (Azadlıq və toxunulmazlıq hüququ) mövzusunda iki günlük təlim keçirilib.

Ümumilikdə 35 vəkilin cəlb olunduğu təlimdə müvafiq mövzular Avropa Şurasının beynəlxalq eksperti xanım Lilian Apostol və təlimçilər üçün təlim proqramının Vəkillər Kollegiyasından olan üzvləri tərəfindən tədris olunub.



**Aprelin 18-də Şirvan regional ədliyyə idarəsində məhkəmə aparatı işçiləri üçün ixtisasartırma kursu keçirilib.**

Ümumilikdə 24 rayon və şəhər məhkəmələrini əhatə edən 45 nəfər məhkəmə aparatı işçisinin cəlb olunduğu kursda Ədliyyə Akademiyası tərəfindən hazırlanmış tədris proqramına uyğun olaraq "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsi: ümumi baxış", "Ədalətli məhkəmə araşdırması hüququnun tətbiq dairəsi", "Ədalətli məhkəmə araşdırması hüququ üzrə təqsirləndirilən şəxsin təminatları" barədə mövzular tədris olunub.

**Aprelin 10-da və 24-də Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində rayon (şəhər) qeydiyyat şöbələrinin və nikah evlərinin əməkdaşları üçün "Korrupsiyaya qarşı mübarizə" mövzusunda təlimlər keçirilib.**

120-dək dinləyicinin cəlb olunduğu təlimlərdə Ədliyyə Akademiyasının müəllim heyəti tərəfindən "Korrupsiyaya qarşı mübarizə və antikorrupsiya mədəniyyəti", "Korrupsiyaya qarşı mübarizə və ədliyyə işçisinin fəaliyyətində maraqların toqquşmasının qarşısının alınması", "Ədliyyə orqanları işçilərinin etik davranış Qaydaları və bu Qaydaların pozulmasına görə məsuliyyət" mövzuları üzrə mühazirələr oxunub, iştirakçıları maraqlandıran məsələlər ətrafında müzakirələr aparılıb.

Akademiya tərəfindən belə təlimlərin bütün ədliyyə işçiləri üçün təşkil olunması nəzərdə tutulur.

# Bələdiyyələrin hüquqi maarifləndirilməsi üçün ardıcıl tədbirlər görülür

**Ədliyyə Akademiyası Bakı şəhəri və Abşeron rayonu üzrə bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə cari ilin aprel ayında Bakı şəhərində, habelə Vergilər Nazirliyi ilə birgə nazirliyin Tədris Mərkəzində, Şəki regional ədliyyə idarəsi ilə birgə Oğuz rayonunda Şəki, Oğuz və Qəbələ rayonlarının bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi məqsədilə tədris kursları təşkil edib.**

Ümumilikdə 120-ə yaxın bələdiyyə nümayəndələrinin iştirak etdiyi kurslarda "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Bələdiyyələrdə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili", "İstirahət vaxtı və işçilərin məzuniyyət hüquqları", "Əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitam olunması", "Bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması", "Yerli (bələdiyyə) vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüquq və vəzifələri", "İnsan hüquqlarının qorunmasında bələdiyyələrin rolu" "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələr" mövzuları üzrə mühazirələr oxunub.





**Aprelin 7-də Lənkəran regional ədliyyə idarəsi tərəfindən də Masallıda bələdiyyə nümayəndələri üçün seminar-müşavirə keçirilib.**

Regional ədliyyə idarəsinin və Masallı rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilmiş tədbirdə Lənkəran regional ədliyyə idarəsinin rəisi vəzifəsini icra edən Çingiz Cavadov çıxış edərək Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən islahatlar barədə məlumat verərək, bələdiyyə üzv və qulluqçularının maarifləndirilməsinin və onlara metodiki kömək göstərilməsinin daim diqqət mərkəzində saxlanıldığını bildirib, belə təlimlərin əhəmiyyətini qeyd edib.

Tədbirdə "Bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları", "Bələdiyyə torpaqlarının idarə olunmasında qanunçuluğun təmin edilməsi", "Yerli vergi və ödənişlərin yığılmasında bələdiyyələrin hüququ və vəzifələri" mövzusunda mühazirə oxunub, iştirakçılarının sualları cavablandırılıb.

**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, maddələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 157.1-ci maddənin birinci cümləsinə "iddianı" sözündən sonra "(bankın öhdəliklərinin könüllü restrukturizasiyası zamanı bank və (və ya) onun aktivləri ilə bağlı verilmiş iddia istisna olmaqla)" sözləri əlavə edilsin.

2. 162.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Məcəllənin 355-17.3-cü maddəsində nəzərdə tutulmuş qətnamə qəbul edildikdə bank və (və ya) onun aktivləri ilə bağlı əvvəllər qəbul edilmiş iddianı təmin etmə tədbirləri ləğv edilməlidir.".

3. 233.1-ci maddədə "və 355-13.4-cü" sözləri ", 355-13.4-cü, 355-17.3-cü, 355-18.4-cü və 355-19.3-cü" sözləri ilə əvəz edilsin.

4. 305.1.14-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.15-ci maddə əlavə edilsin:

"305.1.15. bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında.".

5. 306.1-ci maddədə "40-4-cü" sözləri "40-5-ci" sözləri əvəz edilsin.

6. aşağıdakı məzmunda 40-5-ci fəsil əlavə edilsin:

"Fəsil 40-5 Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında işlər üzrə icraat

Maddə 355-15. Ərizənin verilməsi

355-15.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank onun öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar məhkəməyə müraciət edir.

355-15.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizə bankın yerləşdiyi yer

üzrə məhkəməyə verilir.

Maddə 355-16. Ərizənin məzmunu

Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə əlaqədar ərizəyə bankın öhdəliklərinin könüllü restrukturizasiyasına əsas olan hallarla bağlı sənədlər, maliyyə bazarlarına nəzarət orqanının yazılı bildirişi alınmış restrukturizasiya planı və bununla əlaqədar toplanmış digər sənədlər əlavə edilməli və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-17. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-17.1. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında ərizəyə məhkəməyə verildikdən sonra məhkəmə tərəfindən 10 gün ərzində baxılır və qərar qəbul edilir.

355-17.2. Məhkəmə ərizəyə öhdəlikləri restrukturizasiya edilən bankın və maliyyə bazarlarına nəzarət orqanının mütləq iştirakı ilə baxır. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-17.3. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-17.4. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında qətnamədə, o cümlədən aşağıdakılar göstərilməlidir:

355-17.4.1. bankın adı;

355-17.4.2. restrukturizasiya müddəti və bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi üzrə məsul şəxslər göstərilməklə bankın öhdəliklərinin könüllü restrukturizasiyasının həyata keçirilməsi barədə göstəriş.

355-17.5. Qətnamənin surəti bu Məcəllənin 227-ci maddəsinə uyğun olaraq məhkəməyə müraciət etmiş banka onun hüquqi ünvanı üzrə və maliyyə bazarlarına nəzarət orqanına göndərilir.

Maddə 355-18. Restrukturizasiya planının təsdiq edilməsi

355-18.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada bank öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiqi üçün bankın yerləşdiyi yer üzrə məhkəməyə ərizə ilə müraciət edir. Bank onun öhdəliklərinin könüllü restrukturizasiyası planı ilə birlikdə, həmin planın təsdiq edilməsi haqqında bankın müvafiq kreditorlarının yığıncağının protokolunu və əlaqəli sənədləri də məhkəməyə təqdim edir.

355-18.2. Bankın öhdəliklərinin könüllü restrukturizasiyası planının təsdiq edilməsi haqqında ərizəyə məhkəməyə verildikdən sonra 30 gün ərzində baxılıb qərar qəbul edilir.

355-18.3. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. Məhkəmə iclasının vaxtı və yeri, habelə ayrı-ayrı prosessual hərəkətlərin yerinə yetirilməsi haqqında məhkəmə bildirişi kreditorlar tərəfindən təsdiq edilmiş restrukturizasiya planında göstərilmiş üsulla maraqlı şəxslərə göndərilir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-18.4. Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

Maddə 355-19. Bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında qətnamənin qəbul edilməsi

355-19.1. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda bankın öhdəliklərinin könüllü restrukturizasiyasına xitam verilməsi haqqında maliyyə bazarlarına nəzarət orqanının ərizəsinə bankın yerləşdiyi yer üzrə məhkəməyə verildikdən sonra 10 gün ərzində baxılıb qərar qəbul edilir.

355-19.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verməlidir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-19.3. Qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 aprel 2017-ci il*

**Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 10, maddə 762, N 12, maddə 973; 2010, N 7, maddə 587; 2011, N 6, maddə 485, N 7, maddə 593; 2012, N 5, maddə 410; 2013, N 1, maddə 16, N 11, maddə 1267; 2016, N 1, maddə 12) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.2.9-cu maddə əlavə edilsin:

"2.2.9. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə.".

2. 3.2-ci maddənin hər iki cümləsində "XVIII" rəqəmlərindən sonra ", XIX" rəqəmləri, "mübahisələrə" sözündən sonra isə "(ərizələrə)" sözü əlavə edilsin.

3. 27.0.1-ci maddəyə "iddiaçı" sözündən sonra "(və ya bu Məcəllənin 132-ci maddəsinə uyğun olaraq ərizəçi)" sözləri əlavə edilsin.

4. 40.1-ci maddəyə və 41.2-ci maddənin birinci cümləsinə "aktın" sözündən sonra "(bu Məcəllənin 131.2-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş inzibati akt istisna olmaqla)" sözləri əlavə edilsin.

5. 94.1-ci maddəyə "10" rəqəmlərindən əvvəl ", həmçinin bu Məcəllənin 131.3-cü və 132.3-cü maddələrində nəzərdə tutulmuş hallarda" sözləri əlavə edilsin.

6. aşağıdakı məzmunda XIX fəsil əlavə edilsin:

"XIX fəsil
Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar və maliyyə bazarlarına nəzarət orqanının müvafiq ərizələri üzrə icraat

Maddə 131. Maliyyə bazarlarına nəzarət orqanına qarşı müvafiq iddialar üzrə icraat

131.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində, lisenziyasının ləğvi, məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının qəbul etdiyi inzibati aktlar üzrə mübahisələrə apellyasiya instan-

siyası məhkəmələri tərəfindən baxılır.

131.2. Məhkəmə iddia ərizəsinə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir. Maliyyə bazarlarına nəzarət orqanının bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində, eləcə də bankın lisenziyasının ləğvi ilə bağlı qəbul etdiyi inzibati aktın qanunsuz sayıldığı hallarda məhkəmə kompensasiyanın ödənilməsi barədə qərar qəbul edir.

131.3. Mübahisə ilə bağlı iş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər.

131.4. Ali Məhkəmə şikayətə onun daxil olduğu vaxtdan 15 gün müddətində baxıb qərar qəbul etməlidir.

Maddə 132. Maliyyə bazarlarına nəzarət orqanının müvafiq ərizələri üzrə icraat

132.1. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə apelyasiya instansiyası məhkəmələri tərəfindən baxılır.

132.2. Məhkəmə maliyyə bazarlarına nəzarət orqanının ərizəsinə, ərizənin daxil olduğu vaxtdan aşağıdakı müddətlərdə baxıb qərar qəbul etməlidir:

132.2.1. bankın öhdəlikləri üzrə ödənişlərə moratorium tətbiq edilməsi ilə bağlı ərizələrə - 2 gün müddətində;

132.2.2. lisenziyası ləğv edilmiş bankın məcburi ləğvi və ləğvedicinin (ləğvedicilərin) təyin edilməsi ilə bağlı ərizələrə - 7 gün müddətində;

132.2.3. bankın iflas proseduruna başlanmasına və bu proses çərçivəsində digər məsələlərin həllinə dair ərizələrə - 7 gün müddətində;

132.2.4. bankın sağlamlaşdırılması və rezolyusiyası çərçivəsində verilmiş ərizələrə - 7 gün müddətində;

132.2.5. bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması ilə bağlı ərizələrə - 30 gün müddətində;

132.2.6. digər nəzarət tədbirləri ilə bağlı "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda verilən ərizələrə - 10 gün müddətində.

132.3. Mübahisə ilə bağlı iş üzrə məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Belə şikayətin verilməsi məhkəmə qərarının icrasını dayandırmır.

132.4. Ali Məhkəmə şikayətə 15 gün müddətində baxıb qərar qəbul etməlidir.".

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 aprel 2017-ci il*

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 17, N 5, maddə 323; 2002, N 5, maddə 236; 2003, N 1, mad-

dələr 23, 24, N 6, maddə 279; 2004, N 7, maddə 505, N 8, maddə 598, N 10, maddə 761; 2005, N 4, maddələr 277, 278; 2006, N 2, maddə 64, N 12, maddə 1006; 2007, N 1, maddələr 3, 4, N 2, maddə 68, N 5, maddə 439, N 6, maddə 560, N 7, maddə 712, N 8, maddə 756; 2008, N 6, maddə 462, N 7, maddə 602, N 12, maddə 1046; 2009, N 6, maddə 402; 2010, N 2, maddə 75, N 4, maddə 276; 2011, N 6, maddələr 471, 476, N 7, maddələr 583, 619, N 12, maddələr 1096, 1105; 2012, N 5, maddə 411, N 6, maddə 511; 2013, N 5, maddə 472, N 6, maddə 625, N 11, maddələr 1266, 1307; 2015, N 6, maddə 677, N 12, maddə 1435; 2016, N 5, maddə 836, N 6, maddə 1016, N 11, maddələr 1761, 1763, N 12, maddə 2047; Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 496-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 233.1-ci maddədə "və 355-19.3-cü" sözləri ", 355-19.3-cü və 355-22.4-cü" sözləri ilə əvəz edilsin.

2. 305.1.15-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.16-cı maddə əlavə edilsin:

"305.1.16. internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında.".

3. 306.1-ci maddədə "40-5-ci" sözləri "40-6-cı" sözləri ilə əvəz edilsin.

4. Aşağıdakı məzmunda 40-6-cı fəsil əlavə edilsin:

"Fəsil 40-6. İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında işlər üzrə icraat

Maddə 355-20. Ərizənin verilməsi

355-20.1. Müvafiq icra hakimiyyəti orqanı internet informasiya ehtiyatında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi hallarını müəyyən etdikdə, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün məhkəməyə müraciət edir.

355-20.2. İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizə müvafiq icra hakimiyyəti orqanının yerləşdiyi yer üzrə verilir.

Maddə 355-21. Ərizənin məzmunu

Ərizədə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün qanunda nəzərdə tutulmuş əsaslar, internet informasiya ehtiyatı barədə məlumatlar, məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

Maddə 355-22. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi

355-22.1. İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

355-22.2. Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

355-22.3. İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

355-22.4. İnternet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

355-22.5. Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.".

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 aprel 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**”Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi Xəyalə Cəmilova və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin baş məsləhətçisi Vasif Əmiraslanovun,

ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyevin,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Xəqani Məmmədov və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Hüquq şöbəsinin müdiri Oktay Həsənovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 8.0.1 və 15-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I, II və III hissələrinin tələbləri baxımından şərh edilməsinə dair Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun) 8.0.1 və 15-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 29-cu maddəsinin I, II və III hissələrinin tələbləri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, Şabran rayon Pirəbədil bələdiyyəsi Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 5 saylı Ərazi İdarəsinə (bundan sonra - DƏDRX-in 5 saylı Ərazi İdarəsi) qarşı iddia ərizəsi ilə Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək, Şabran rayon Pirəbədil bələdiyyəsinin 30 iyun 2014-cü il tarixli iclas protokolunun qərarı ilə sənədləşdirilməsi nəzərdə tutulmuş Zöhramlı kəndində yerləşən sahəsi 300 kv.m. olan torpaq sahəsi üzərində Şabran rayon Pirəbədil bələdiyyəsinin mülkiyyət hüququnun daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınması və bununla bağlı müvafiq çıxarışın Şabran rayon Pirəbədil bələdiyyəsinə təqdim edilməsi öhdəliyinin cavabdehin üzərinə qoyulmasını xahiş etmişdir.

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin 29 iyul 2016-cı il tarixli qərarı ilə iddia təmin edilmiş və həmin torpaq sahəsi üzərində Şabran rayon Pirəbədil bələdiyyəsinin mülkiyyət hüququnun daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınaraq çıxarışın verilməsi cavabdehin üzərinə vəzifə olaraq qoyulmuşdur.

Birinci instansiya məhkəməsi iddia tələbini təmin edərkən belə qənaətə gəlmişdir ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsində ayrılmış torpaq sahəsinin hansı kateqoriya torpaqlara aid olduğunun göstərilməməsi hüquqların dövlət qeydiyyatına alınmasından imtinanın əsası kimi müəyyən edilməmişdir.

DƏDRX-in 5 saylı Ərazi İdarəsi apellyasiya şikayəti verərək, Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin həmin qərarının ləğv edilməsini xahiş etmişdir. Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, Pirəbədil bələdiyyəsinin xəritəsində ayrılmış ərazinin hansı kateqoriya torpaqlara aid olduğu göstərilmədiyindən həmin torpaq sahəsinin təyinatını müəyyən etmək mümkün deyildir və bu səbəbdən "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 11.1 və 15-ci maddələrinə əsasən iddia təmin olunmamalıdır.

Sumqayıt Apellyasiya Məhkəməsi hesab etmişdir ki, cavabdeh tərəfindən torpaq sahəsinin təyinatının müəyyən edilməsinin mümkün olmaması səbəbindən hüquqların dövlət qeydiyyatına alınmasından imtina edilməsi konstitusiya hüquqlarının pozulmasına gətirib çıxara bilər.

Müraciətedənin fikrincə, belə müraciətlərə münasibətdə inzibati orqan tərəfindən inzibati icraat "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "İnzibati icraat haqqında" Qanun) tələblərinə uyğun şəkildə aparılmalı, torpaq sahəsinin hansı kateqoriyaya aid edildiyi araşdırılmalı və yalnız bundan sonra obyektiv, qanuni və əsaslı inzibati akt qəbul edilməlidir. Məhkəmə, həmçinin qeyd edir ki, inzibati orqan bəzi hallarda "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15.1.1 və 15.1.5-ci maddələrinə təhrif etməklə istinad edərək hüquqların dövlət qeydiyyatına alınmasından imtina edir.

Sumqayıt Apellyasiya Məhkəməsinin qənaətinə görə, təcrübədə yaranan qeyri- müəyyənliyin aradan qaldırılması və insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması məqsədilə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8.0.1 və 15-ci maddələrinin şərh edilməsinə zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu xüsusi konstitusiya icraatı üzrə işi araşdıraraq belə qənaətə gəlir ki, müraciətdə qaldırılan məsələnin düzgün həll edilməsi üçün "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsi Konstitusiyanın 29-cu maddəsinin VI hissəsinin tələbləri nəzərə alınmaqla şərh edilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir. Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz (Konstitusiyanın 13-cü maddəsinin I hissəsi və 29-cu maddəsinin I, II, III və IV hissələri).

Mülkiyyət hüququ "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 1 saylı Protokolunun 1-ci maddəsində də öz əksini tapmışdır.

Konstitusiya Məhkəməsinin mülkiyyət hüququ ilə bağlı formalaşdırdığı hüquqi mövqeyi ondan ibarətdir ki, bu hüququn məzmunu Konstitusiyanın 13-cü maddəsinin müddəaları nəzərə alınmaqla başa düşülməlidir. Vətəndaş cəmiyyətinin mühüm institutu olan mülkiyyət iqtisadiyyatın inkişafının əsasını təşkil edən ən vacib amillərdəndir. Buna görə də mülkiyyət Konstitusiyanın 13-cü maddəsi ilə toxunulmaz elan olunaraq dövlət tərəfindən qorunur. Mülkiyyət hüququ isə cəmiyyətdəki hər bir fərdin azadlığının əsası kimi çıxış edir, şəxsiyyətin inkişafı və azad sahibkarlıq üçün zəruri şərtdir. Dövlət mülkiyyət hüququnun səmərəli həyata keçirilməsinə qanunsuz müdaxilələrdən çəkinməli və onların qarşısını almalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-2.1 və 107-5.1-ci maddələrinin şərh edilməsinə dair" 16 dekabr 2011-ci il tarixli Qərarı).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra - Avropa Məhkəməsi) mülkiyyət hüququna müdaxilə ilə bağlı qeyd etmişdir ki,

Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin ən mühüm və əsas tələbi ondan ibarətdir ki, dövlət orqanı tərəfindən mülkiyyətə istənilən müdaxilə tam qanuni olmalıdır. Konvensiya baxımından qanunçuluğun tələbi - dövlətdaxili hüquq normalarının qanunun aliliyi prinsipi ilə uzlaşması deməkdir ("Kushoglu Bolqarıstana qarşı" iş üzrə 10 may 2007-ci il tarixli Qərar).

Konstitusiyanın 60-cı maddəsinin I və II hissələrinə əsasən, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

İnzibati ədliyyənin əsas məqsədlərindən biri dövlət idarəçiliyi sahəsində insanın subyektiv hüquqlarının müdafiəsidir. İnzibati sahədə subyektiv hüquqlar, bir qayda olaraq, şəxsin hüquqi norma ilə müəyyən edilmiş çərçivədə davranış azadlığını, müəyyən sosial təzminatlardan istifadə etmək imkanını, müəyyən hərəkətləri etmək və digərlərindən müəyyən hərəkətlərin edilməsini tələb etmək səlahiyyətlərini, hüquqlarının müdafiəsi üçün inzibati orqanlara və məhkəmələrə müraciət etmək hüququnu əhatə edir.

Konstitusiya Məhkəməsi Plenumunun "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 87.2-ci və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 2.1-ci maddələrinin şərh edilməsinə dair" 4 aprel 2012-ci il tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə, inzibati hüquq münasibətləri (idarəçilik sahəsində ümumi (publik) hüquq münasibətləri) dövlət idarəçiliyi və ya yerli özünüidarəetmə sahəsində yaranır və bilavasitə dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi prosesində inzibati orqanların vəzifə və səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlıdır.

Azərbaycan Respublikasında inzibati orqanlar tərəfindən insan hüquq və azadlıqlarına əməl olunmasını təmin etmək və qanunun aliliyinə nail olmaq məqsədilə "İnzibati icraat haqqında" Qanun qəbul edilmişdir. Bu Qanun inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətin hüquqi əsaslarını, prinsiplərini və prosedur qaydalarını müəyyən edir.

"İnzibati icraat haqqında" Qanunun 24-cü maddəsinə əsasən, inzibati orqan inzibati icraat zamanı işin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırmağa borcludur. İnzibati orqan maraqlı şəxslərin xeyrinə olan halların araşdırılmasından və nəzərə alınmasından imtina edə bilməz. İnzibati icraat zamanı işin bütün hallarının araşdırılması inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir. Araşdırmanın üsulu və həcmi inzibati orqan tərəfindən müəyyən edilir. İnzibati orqan maraqlı şəxslərin izahatları ilə və təqdim etdiyi sübutlarla bağlı deyildir. Təqdim olunmuş sübutlar yetərli olmadıqda, inzibati orqan öz təşəbbüsü ilə əlavə sübutlar toplamağa borcludur.

Həmin Qanunun 15-ci maddəsinə görə, qanunla məcburi şərt kimi nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız formal tələblərə əməl olunmasını təmin etmək məqsədilə inzibati orqanlar tərəfindən fiziki və hüquqi şəxslərin üzərinə bu və ya başqa öhdəliklərin qoyulması qadağandır. Qanunda birbaşa nəzərdə tutulmadığı hallarda fiziki və ya hüquqi şəxslər tərəfindən formal tələblərə əməl olunmaması və ya lazımi qaydada əməl olunmaması inzibati orqanlar tərəfindən müvafiq qərarın qəbul olunmasından imtina üçün əsas ola bilməz.

"İnzibati icraat haqqında" Qanunun 23.1-ci maddəsində göstərilir ki, inzibati orqan ərizə, şikayət və ya vəsatətlərin verilməsində, ərizə, şikayət və ya vəsatətlərdə buraxılmış səhvlərin aşkar edilməsində və onların aradan qaldırılmasında maraqlı şəxsə yardım etməyə, inzibati icraatda iştirak edən şəxsin malik olduğu hüquq və vəzifələri ona izah etməyə borcludur.

Qanunun 32.2-ci maddəsinə müvafiq olaraq isə ərizəçi qanun və digər normativ hüquqi aktlarda nəzərdə tutulan və işin həlli üçün zəruri olan sənədləri və ya məlumatları təqdim etmədiyi halda, inzibati orqan əlavə sənədlərin və ya məlumatların təqdim olunmasını tələb edə bilər.

"İnzibati icraat haqqında" Qanunun qeyd olunan normalarından görünür ki, inzibati orqan hər bir müraciəti hərtərəfli, tam və obyektiv araşdırmalı, formal səbəblərə görə müvafiq qərarın qəbul olunmasından imtina etməməli və maraqlı şəxsə qanunvericilikdə nəzərdə tutulmuş bütün vasitələrdən istifadə etməklə yardım göstərməli, eləcə də inzibati icraatda iştirak edən şəxsin malik olduğu hüquq və vəzifələri ona izah etməlidir.

Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı Azərbaycan Respublikasının Mülki Məcəlləsi (bundan sonra - Mülki Məcəllə) və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunla müəyyən edilmiş qaydada inzibati orqan olan Azərbaycan

Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən həyata keçirilir.

Mülki Məcəllənin 139-cu maddəsinə əsasən, mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar bu Məcəllədə və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır. Daşınar əmlaka hüquqlar yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda dövlət qeydiyyatına alınmalıdır. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.

Həmin Məcəllənin 238.1-ci maddəsinə görə, torpaq daşınmaz əmlak kimi mülkiyyət hüququnun obyektidir. Torpaq sahəsinin ərazi sərhədləri daşınmaz əmlakın dövlət reyestrinin ixtiyarlı şəxsinin mülkiyyətçiyə verdiyi sənədlər əsasında təyin edilir.

Daşınmaz əmlaka, o cümlədən torpağa mülkiyyət hüququ və onunla bağlı digər hüquqların dövlət qeydiyyatı, habelə Azərbaycan Respublikası ərazisi üzrə vahid olan daşınmaz əmlakın dövlət reyestrinin aparılması qaydaları "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunla müəyyən edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində təsbit edilmiş mülkiyyət hüququnun təminatı mexanizmi məhz daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat əsasında həyata keçirilir. Daşınmaz əmlaka aid olan məlumatların vahid dövlət reyestrində qeydiyyatı həm dövlət, həm də mülkiyyətçilərin mənafelərinin qorunması baxımından vacibdir. Daşınmaz əmlakın dövlət qeydiyyatı nəticəsində şəxsin qanuni əsaslarla əldə etdiyi müvafiq daşınmaz əmlaka mülkiyyət hüququnun tanınması bu hüququn pozulmasının qarşısını alır. Daşınmaz əmlakın dövlət qeydiyyatı əmlaka dair mülkiyyət hüququnu təsdiqləyən sənədlərin həqiqiliyinə və əsaslılığına təminat kimi qiymətləndirilir. Dövlət orqanlarının bu istiqamətdəki fəaliyyətinin əsas məqsədlərindən biri isə hər kəsin hüquq və qanuni mənafelərinin qorunmasıdır. Bu baxımdan qeyd olunan sahədə dövlət orqanlarına həvalə edilmiş səlahiyyətlərin həyata keçirilməsi nəticəsində hər bir fiziki və ya hüquqi şəxsin hüquqlarının, o cümlədən mülkiyyət hüquqlarının tam həcmdə reallaşdırılmasının əsassız olaraq məhdudlaşdırılmasının yolverilməzliyi də xüsusi əhəmiyyət kəsb edir.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 2.1 və 2.2-ci maddələrinə əsasən, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı Mülki Məcəlləyə uyğun olaraq daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır. Mülki Məcəllə ilə və bu qanunla müəyyən edilmiş qaydada daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı daşınmaz əmlakın dövlət reyestrində aparılır.

Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsaslar Mülki Məcəllənin 139-1 və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 8-ci maddələrində müəyyən olunmuşdur. Qanunun həmin maddəsinə əsasən, daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün qanunla müəyyən edilmiş qaydada icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən müvafiq olaraq dövlətə və ya bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə, icarəsinə, istifadəsinə, ipoteka qoyulmasına dair qəbul olunmuş aktlar (Qanunun 8.0.1-ci maddəsi), 2006-cı il iyulun 6-dək müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş daşınmaz əmlak üzərində, o cümlədən torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, su tutarları, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri (Qanunun 8.0.5-ci maddəsi) və sair əsas hesab olunur.

Həmin Qanunun 10-cu maddəsində hüquqların dövlət qeydiyyatı üçün təqdim edilməli olan sənədlərin siyahısı göstərilmişdir. Bu maddəyə görə, hüquqların dövlət qeydiyyatı bu Qanunla müəyyən olunmuş qaydada hüquq əldə edənin, onun tərəfindən vəkil edilmiş şəxsin bilavasitə təqdim edilən və ya notarius vasitəsilə göndərilən ərizəsi əsasında aparılır. Ərizədə hüquq əldə edən fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənəd, hüquqi şəxsin isə tam adı, ünvanı, qeydiyyatı haqqında şəhadətnamə, icra hakimiyyəti orqanının tam adı və ünvanı,

xahişin məzmunu və əlavə olunan sənədlər göstərilməlidir. Ərizənin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Qeydiyyat orqanına verilən ərizəyə aşağıdakılar əlavə olunur:

- hüquqların dövlət qeydiyyatı üçün bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş əsaslardan biri;
- torpaq sahəsinin planı və ölçüsü;
- torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakının (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi;
- dövlət rüsumunun ödənilməsi barədə sənəd.

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 10.2.1-ci maddəsinin məzmunundan görünür ki, hüquqların dövlət qeydiyyatı üçün bu Qanunun 8-ci maddəsində nəzərdə tutulmuş əsaslardan birinin olması kifayətdir. Bu normanın mətninə və məzmununa görə, Qanunun 8-ci maddəsində təsbit olunmuş əsaslardan (sənədlərdən) hər hansı biri təqdim olunduqda, qeydiyyat orqanı əlavə olaraq əsaslardan (sənədlərdən) başqa birinin də təqdim olunmasını tələb etməyə haqlı deyil (Konstitusiya Məhkəməsi Plenumunun "Savalan" Açıq Səhmdar Cəmiyyətinin şikayəti üzrə 4 oktyabr 2016-cı il tarixli Qərarı).

Hüquqların dövlət qeydiyyatına alınmasından imtina edilməsi halları isə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15.1-ci maddəsində sadalanmışdır. Həmin hallar aşağıdakılardan ibarətdir:

- dövlət qeydiyyatı barədə müraciət olunan hüquq bu qanuna əsasən dövlət qeydiyyatına alınmalı deyildirsə;
- hüquqların dövlət qeydiyyatı üçün notariat qaydasında təsdiqlənməsi tələb olunmayan sənədlərin forması və məzmunu qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun deyildirsə;
- hüquqların dövlət qeydiyyatı barədə ərizəni verməyə ixtiyarı olmayan şəxs müraciət etdikdə;
- daşınmaz əmlaka hüququn yaranması barədə icra hakimiyyəti və ya bələdiyyə orqanının aktı qanunvericiliklə müəyyən edilmiş qaydada etibarsız hesab olunduqda;
- daşınmaz əmlak barəsində təsdiqləyici sənəd vermiş şəxs həmin əmlak üzərində hüquqa dair sərəncam vermək səlahiyyətinə malik olmadıqda;
- bu Qanunun 14-cü maddəsində nəzərdə tutulmuş qeydiyyatın dayandırılmasına səbəb olan hallar aradan qaldırılmadıqda.

Göründüyü kimi, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsaslar, təqdim edilməli olan sənədlərin siyahısı, həmin sənədlərə dair tələblər, hüquqların dövlət qeydiyyatından imtinanın halları konkret müəyyən olunmuşdur.

Bununla yanaşı, hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir ("Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 10.4-cü maddəsi).

"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 11-ci maddəsinə əsasən, hüquqların mövcudluğunu, əldə edilməsini, başqasına keçməsini, məhdudlaşdırılmasını (yüklənməsini), onlara xitam verilməsini təsdiq edən sənədlər hüquqların dövlət qeydiyyatı üçün qanunla müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

Eyni zamanda, qanunverici müvafiq icra hakimiyyəti orqanının üzərinə daxil edilmiş sənədlərdə göstərilən məlumatın dövlət reyestrində saxlanılan məlumata uyğunluğunun yoxlanılması, bəyan olunan hüquqlarla qeydiyyata alınmış hüquqlar arasında ziddiyyətlərin, habelə hüquqların dövlət qeydiyyatından imtina edilməsi və ya hüquqların dövlət qeydiyyatının dayandırılması üçün digər əsasların olub-olmamasının müəyyən edilməsi vəzifəsini qoymuşdur ("Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 9.1.2 və 9.1.3-cü maddələri).

Konstitusiya Məhkəməsinin Plenumu mülkiyyət hüququnun obyekti kimi torpağın Konstitusiyada təsbit olunmuş xüsusi əhəmiyyətini və ondan səmərəli istifadə edilməsinin vacibliyini nəzərə alaraq qeyd etməyi zəruri hesab edir ki, torpaq üzərində hüquqların dövlət qeydiyyatı aparılarkən müvafiq icra hakimiyyəti orqanı "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda göstərilən tələblərə daha diqqətlə yanaşmalı, təqdim olunan sənədlərin qanunvericilikdə göstərilən tələblərə uyğun olub-olmamasının yoxlanılmasına xüsusi diqqət yetirməlidir.

Konstitusiyanın 29-cu maddəsinin VI hissəsinə əsasən, sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər. Konstitusiyanın bu norması bələdiyyə və xüsusi mülkiyyətə verilən torpaq sahələrinin (məsələn, kənd təsərrüfatı təyinatlı torpaqların) mülkiyyətçi tərəfindən təyinatı üzrə istifadə edilməsini də ehti-

va edir. Əks halda həmin torpaq üzərində mülkiyyət hüququnun məhdudlaşdırılması üçün hüquqi əsas yaranmış olar.

Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (bundan sonra - Torpaq Məcəlləsi) 4-cü maddəsinin 3-cü bəndinə müvafiq olaraq, torpaq sahəsinin hüquqi statusu onun məqsədli təyinatını, torpaq sahəsi üzərində hüququn forması (mülkiyyət, istifadə və ya icarə hüququ), habelə torpaq sahəsindən istifadəyə dair müəyyən edilmiş yüklənməni (məhdudiyyətləri) əhatə edir.

Həmin Məcəllənin 10-cu maddəsinin 1, 4 və 5-ci bəndlərinə əsasən, torpaqların məqsədli təyinatı - torpağın kateqoriyasına uyğun olaraq, onun konkret məqsədlər üçün istifadəsinin bu Məcəllədə və digər normativ-hüquqi aktlarda müəyyən edilmiş qaydaları, şərtləri və həddidir. Torpaq kateqoriyalarının məqsədli təyinatı və hüquqi rejimi qanunvericiliklə müəyyən edilir, şəhərsalma və yerquruluşu sənədlərində əks etdirilir. Kateqoriyalar daxilində torpaqlardan istifadə qaydaları onların təbii-təsərrüfat rayonlaşdırılması, zonalaşdırılması, istifadəsinin ərazi planlaşdırılması və yerquruluşu sənədlərinə uyğun olaraq mülkiyyətçilər, istifadəçilər və icarəçilər tərəfindən müəyyən edilir. Torpağın kateqoriyaları torpağın verilməsi barədə müvafiq icra hakimiyyəti orqanının və ya bələdiyyənin qərarında, dövlət torpaq kadastrı sənədlərində, torpaq qeydiyyatı kitablarında və bu Məcəllədə göstərilən digər sənədlərdə əks olunur.

Torpaq mülkiyyətçisinə, istifadəçisinə və icarəçisinə torpaq sahəsi həmin sahə üçün müəyyən edilmiş məqsədli təyinatına və hüquqi statusuna uyğun olaraq verilir (Torpaq Məcəlləsinin 48-ci maddəsinin 4-cü bəndi).

Torpaq Məcəlləsinin 82-ci maddəsinə görə isə torpaqdan təyinatı üzrə, səmərəli və müəyyən edilmiş istifadə rejiminə uyğun istifadə etmək, təbiətqoruyucu istehsal texnologiyalarını tətbiq etmək, təsərrüfat fəaliyyətində ərazinin ekoloji vəziyyətinin pisləşməsinə yol verməmək torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin borcudur.

Torpaq qanunvericiliyinin yuxarıda qeyd olunan normalarından da göründüyü kimi, Azərbaycan Respublikasının ərazisində torpaqlar onların kateqoriyasına (məqsədli təyinatına) uyğun istifadə edilməlidir.

Eyni zamanda, həmin Məcəllənin 110-cu maddəsində göstərilir ki, bu Məcəllənin tələblərini pozmuş şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət Məcəllələrinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Bununla yanaşı, "Azərbaycan Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli Fərmanına uyğun olaraq, dövlət və bələdiyyə mülkiyyətində, habelə xüsusi mülkiyyətdə olan bütün kateqoriyalı torpaqların elektron uçotunun aparılması və xəritələşdirilməsi yolu ilə torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi nəzərdə tutulub ki, bunun da məqsədlərindən biri torpaqlardan məqsədli təyinatına və hüquqi rejiminə uyğun istifadəyə və onların mühafizəsinə nəzarət etməkdir.

Həmin Fərmanın 6.2-ci bəndinə müvafiq olaraq, "Azərbaycan Respublikasında daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, torpaqdan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına dair 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi nəzərdə tutulur. Bu tədbirlərin həyata keçirilməsi daşınmaz əmlakın kadastrı sisteminin inkişafı, daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı prosesinin təkmilləşdirilməsi, torpaq münasibətlərinin tənzimlənməsi, torpaqların təyinatına uyğun istifadə edilməsi sahəsində işin təkmilləşdirilməsi məqsədləri daşıyır.

Eyni zamanda, qeyd olunmalıdır ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli Fərmanının 2-ci hissəsində müəyyən edilmişdir ki, bu Fərmanın 1-ci hissəsi ilə təsdiq olunan Siyahıda nəzərdə tutulmuş sənədlər müvafiq əmlaka hüququn əmələ gəldiyi anda həmin əmlak magistral boru kəmərlərinin, yüksək gərginlikli elektrik şəbəkələrinin, nəqliyyat infrastrukturu obyektlərinin və suların mühafizə zonalarında, neft və qaz yataqlarının işlənməsi üçün təsərrüfat subyektlərinin istifadəsində olan torpaq sahələrində yerləşmədiyi hallarda daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınması üçün əsas hesab edilir.

Qeyd olunan Fərmanın mənasından aydın olur ki, müvafiq əmlaka hüququn əmələ gəldiyi anda

həmin əmlakın magistral boru kəmərlərinin zonalarında və sair torpaq sahələrində yerləşməsi hüquqların dövlət qeydiyyatına alınmasından imtina üçün əsas ola bilər.

Yuxarıda qeyd olunan normativ-hüquqi aktların qəbul edilməsi torpaq münasibətlərində, o cümlədən torpaq sahəsinin kateqoriyasının müəyyən edilməsi sahəsində müəyyən boşluqların aradan qaldırılmasına, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, torpaqlardan istifadə və onların mühafizəsinə dövlət nəzarətinin artırılmasına və bu məqsədlə mövcud qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edir.

Mövcud qanunvericilik normalarının tələblərinə görə, torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) və sair barədə məlumatlar əks olunmalıdır. Hüquqların dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı belə sənədlərin olmadığı təqdirdə "İnzibati icraat haqqında" Qanunun müvafiq normalarına əsasən maraqlı şəxsə yardım etməli və ya işin həlli üçün zəruri olan əlavə sənədlərin təqdim olunmasını tələb etməlidir. Belə yardımın göstərilməsi, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti haqqında" Əsasnamənin 3.0.23-cü bəndindən də irəli gəlir. Belə ki, həmin normaya əsasən, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı məqsədi ilə torpaq sahəsinin planının və ölçüsünün tərtib edilməsini və verilməsini təmin etmək Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin vəzifəsidir.

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında" Əsasnamənin 3.0.105-ci bəndinə əsasən isə torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi barədə vəsatətlərə baxmaq və aidiyyəti orqanlarla razılaşdırılmış təklifləri əsaslandırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək Əmlak Məsələləri Dövlət Komitəsinin vəzifələrinə aid edilmişdir.

Əgər torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün zəruri olan sənədlər təqdim olunmazsa, "İnzibati icraat haqqında" Qanunun 34-cü maddəsinə uyğun olaraq ərizə baxılmamış saxlanıla bilər. Bu, habelə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 14.1-ci maddəsinin mənasından da irəli gəlir. Belə ki, Qanunun 14.1-ci maddəsinə müvafiq olaraq, qeydiyyat orqanının sənədlərin həqiqiliyinə ciddi şübhəsi varsa, qeydiyyat bir ay müddətinə dayandırıla bilər. Həmçinin Qanunun 14.3-cü maddəsinə görə, hüquqların dövlət qeydiyyatına alınması hüquq əldə edənin, əqdin tərəfinin və ya onların vəkil etdikləri şəxsin ərizəsi əsasında bir aydan artıq olmayan müddətə dayandırıla bilər. Ərizədə hüquqların dövlət qeydiyyatının dayandırılmasının səbəbləri göstərilməlidir. Belə ərizənin verilməsi hüquqların dövlət qeydiyyatı üçün nəzərdə tutulmuş müddətin axınını dayandırır. Torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün ərizənin baxılmamış saxlanılmasına və ya hüquqların dövlət qeydiyyatının dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqda qeydiyyat orqanı müvafiq qərar qəbul etməkdə haqlıdır.

Bununla yanaşı, torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş torpağın kateqoriyasına uyğun gəlmədikdə həmin torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilər.

Lakin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsində yuxarıda göstərilən əsasa görə hüquqların dövlət qeydiyyatına alınmasından imtina halı nəzərdə tutulmamışdır.

Mövcud vəziyyəti nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 29-cu maddəsinin VI hissəsindən çıxış edərək qanunverici tərəfindən "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsində nəzərdə tutulan hüquqların dövlət qeydiyyatına alınmasından imtina hallarının təkmilləşdirilməsini məqsədə müvafiq hesab edir.

Müvafiq dəyişikliklər edilənədək torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş torpağın kateqoriyasına uyğun gəlmədikdə, həmin torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilər.

Belə olan halda torpaq sahəsi üzərində hüquqlarının dövlət qeydiyyatına alınmasından

imtina edilən maraqlı şəxs "İnzibati icraat haqqında" Qanuna müvafiq olaraq məhkəməyə müraciət edə bilər.

Eyni zamanda, hüquqların dövlət qeydiyyatını aparan müvafiq icra hakimiyyəti orqanı torpaq ehtiyatlarından səmərəli istifadə və onların mühafizəsi məsələləri üzrə yerli icra hakimiyyəti orqanlarının və bələdiyyələrin qanunvericiliyin tələblərinə uyğun gəlməyən torpaq sahəsinin ayrılması (satılması) barədə qərarlarının icrasının dayandırılması və ya ləğv edilməsi barədə aidiyyəti orqanlar qarşısında məsələ qaldırmaqda və ya məhkəmədə iddia qaldırmaqda haqlıdır.

Yuxarıda göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir:

- Konstitusiyanın 29-cu maddəsinin VI hissəsi baxımından "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsində nəzərdə tutulan hüquqların dövlət qeydiyyatına alınmasından imtina hallarının bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqeyə uyğun təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilməlidir.

- Məsələ qanunvericilik qaydasında həll edilənədək torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş kateqoriyaya uyğun gəlmədikdə, həmin torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilər. Torpaq sahəsi üzərində hüquqlarının dövlət qeydiyyatına alınmasından imtina edilən maraqlı şəxs "İnzibati icraat haqqında" Qanuna müvafiq olaraq məhkəməyə müraciət edə bilər.

Torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınarkən torpağın kateqoriyasının (məqsədli təyinatının) müəyyən edilməməsi aşkar olunduqda, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 14.1-ci maddəsinə uyğun olaraq qeydiyyat dayandırıla bilər. Torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün ərizənin baxılmamış saxlanılmasına və ya hüquqların dövlət qeydiyyatının dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqda, qeydiyyat orqanı müvafiq qərar qəbul etməkdə haqlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VI hissəsi baxımından "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunun 15-ci maddəsində nəzərdə tutulan hüquqların dövlət qeydiyyatına alınmasından imtina hallarının bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqeyə uyğun təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

2. Məsələ qanunvericilik qaydasında həll edilənədək torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş kateqoriyaya uyğun gəlmədikdə, həmin torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilər. Torpaq sahəsi üzərində hüquqlarının dövlət qeydiyatına alınmasından imtina edilən maraqlı şəxs "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq məhkəməyə müraciət edə bilər.

Torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınarkən torpağın kateqoriyasının (məqsədli təyinatının) müəyyən edilməməsi aşkar olunduqda, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq qeydiyyat dayandırıla bilər. Torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün ərizənin baxılmamış saxlanılmasına və ya hüquqların dövlət qeydiyyatının dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqda, qeydiyyat orqanı müvafiq qərar qəbul etməkdə haqlıdır.

3. Qərar dərc olunduğu gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 28 mart 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

**Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair**

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr),

Sona Salmanova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin hakimləri Cahangir Yusifov və Vidadi Məmmədovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin məsləhətçisi Kəmalə Qəmərlinin,

ekspert Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Sübhan Əliyevin,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Hüseynovun, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hüquq İdarəsinin Hüquqi təminat və təmsilçilik şöbəsinin rəisi, ədliyyə polkovniki Rövşən Rəsulzadənin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 81.2-ci maddəsinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin (bundan sonra - İnzibati Prosessual Məcəllə) 81-ci maddəsində nəzərdə tutulan apellyasiya şikayəti vermək hüququnun işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərə münasibətdə həmin Məcəllənin 81.2-ci maddəsinin tələbləri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilir ki, iddiaçılar S.Hüseynova və qeyriləri Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər Ərazi İdarəsinə qarşı iddia ərizəsi ilə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edərək alqı-satqı müqaviləsi əsasında əldə etdikləri daşınmaz əmlaka, o cümlədən torpaq sahələrinə texniki pasportun və reyestrdən çıxarışın verilməsi vəzifəsinin cavabdehin üzərinə qoyulması barədə qərar qəbul edilməsini xahiş etmişlər. Məhkəmənin 1 may 2012-ci il tarixli qərarı ilə iddia təmin edilmişdir.

Həmin qərar qanuni qüvvəyə mindikdən sonra işdə iştirak etməyə cəlb edilməyən Azərbaycan Respublikasının Müdafiə Nazirliyi (bundan sonra - Müdafiə Nazirliyi) apellyasiya şikayəti ilə Bakı Apellyasiya Məhkəməsinə müraciət edərək birinci instansiya məhkəməsinin qərarının ləğv edilməsini xahiş etmişdir.

Müdafiə Nazirliyi apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, məhkəmə qərarı əsasında iddiaçıların adına dövlət qeydiyyatına alınan mübahisəli torpaq sahəsində 1950-ci ildən Müdafiə Nazirliyinin hərbi şəhərciyi yerləşir. Həmin torpaq sahəsi Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə müddətsiz istifadəyə verilmişdir. Birinci instansiya məhkəməsi işə baxarkən ərazinin kimin istifadəsində olmasını müəyyənləşdirməmiş və maraqlarına toxunan Müdafiə Nazirliyini üçüncü şəxs qismində işə cəlb etməmişdir.

Müraciətedənin fikrincə, inzibati prosessual qanunvericilikdə işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin şikayət vermək hüququ ilə bağlı birbaşa müddəalar mövcud olmadığından, Müdafiə Nazirliyinin apellyasiya şikayətinə mahiyyəti üzrə baxılmasında prosessual çətinliklər yaranmışdır.

Bakı Apellyasiya Məhkəməsi hesab edir ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin məhkəməyə müraciət etmək hüququnun təmin olunması və vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından İnzibati Prosessual Məcəllənin 81.2-ci maddəsinin şərh edilməsinə zərurət yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələ İnzibati Prosessual Məcəllənin üçüncü şəxslərin inzibati məhkəmə icraatına cəlb olunmasını tənzimləyən 28-ci maddəsinin şərh edilməsi yolu ilə həll edilə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 60-cı maddəsindən irəli gələn məhkəməyə müraciət etmək hüququ ilə hüquqi müəyyənliyin ayrılmaz tərkib hissəsi olan məhkəmə qərarlarının stabilliyi prinsipinin əlaqəli şəkildə təhlil olunmasını zəruri hesab edir.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə görə, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Konstitusiyanın 71-ci maddəsinin VI və VII hissələrinə əsasən, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Konstitusiyanın 125-ci maddəsinin I hissəsində məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi təsbit edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqların səmərəli müdafiəsinin vacibliyini dəfələrlə qeyd edərək bildirmişdir ki, məhkəmə müdafiəsi hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, Konstitusiyada təsbit edilmiş digər hüquq və azadlıqların təminatı qismində də çıxış edir. Sözügedən hüquq yalnız məhkəməyə müraciətlə məhdudlaşmır, habelə pozulmuş hüquqları və azadlıqları səmərəli bərpa etmək iqtidarında olan ədalət mühakiməsini də nəzərdə tutur (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372-ci maddəsinin apellyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələrinin tələbləri baxımından şərh edilməsinə dair" 5 dekabr 2011-ci il tarixli Qərarı).

Bununla yanaşı, Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 420-ci maddəsinin şərh edilməsinə dair" 28 fevral 2012-ci il tarixli Qərarında qeyd etmişdir ki, məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində, pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Ədalət mühakiməsi vasitəsilə insan hüquq və azadlıqlarının təminatı sisteminin universal xarakteri, həmçinin şəxsin qanunsuz və əsassız məhkəmə qərarlarından müdafiə olunması məqsədilə müvafiq məhkəmələrə şikayət etmək imkanlarını əhatə edir.

Konstitusiyada nəzərdə tutulmuş təminatların yerinə yetirilməsi baxımından ədalət mühakiməsinin keyfiyyətcə səmərəli və ədalətli həyata keçiril-

məsi, qanunvericilikdə hüquq və vəzifələrin həcminin prosessual prosedur, qaydalar, xüsusən də müddətlər çərçivəsində balanslaşdırılması zəruriliyini ortaya çıxarır ki, bu da məhkəmə icraatı zamanı məhkəmənin (hakimin), tərəflərin, prosesin digər iştirakçılarının, həmçinin maraqlı şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasına xidmət edən mühüm şərtlərdən biridir (Konstitusiya Məhkəməsi Plenumunun C.İsmayılzadənin şikayəti ilə əlaqədar 13 fevral 2007-ci il tarixli Qərarı).

Eyni zamanda, qeyd olunmalıdır ki, şəxsin məhkəməyə müraciət etmək hüququ məhkəmə prosesinin bütün mərhələlərinə aiddir. Bu, məhkəmə müdafiəsinin yalnız birinci instansiyada təmin olunmasını deyil, qanunla nəzərdə tutulmuş hallarda apellyasiya və kasasiya instansiyalarında da həyata keçirilməsini nəzərdə tutur.

Məhkəmə müdafiəsi hüququ mülki və inzibati işlər üzrə nəinki məhkəmə icraatına başlanması imkanını, o cümlədən məhkəmənin lazımi qaydada təşkili və tərkibini, həmçinin prosesin gedişatı ilə bağlı dövlət təminatını nəzərdə tutur. Prosesin gedişatı tərəflərin iradəsindən asılı olaraq birinci instansiya məhkəməsində, həm də apellyasiya və kasasiya instansiyalarında məhkəmə müdafiəsi imkanlarının tükənməsinə qədər davam etdirilə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququ həyata keçirilərkən konstitusiya hüququnun doktrinasından irəli gələn hüquqi müəyyənlik prinsipinə riayət edilməsi pozulmuş hüquq və azadlıqların qorunmasını daha da səmərəli edir.

Hüquqi müəyyənlik prinsipi Konstitusiyanın Preambulasında əksini tapan qanunun aliliyinin əsas elementlərindən biridir. Hüquqi müəyyənlik prinsipi digər tələblərlə yanaşı, ən ümumi mənasında mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur. Bu baxımdan məhkəmələr tərəfindən qəbul olunmuş qərarlarda həll olunan işə aid bütün zəruri məsələlərə aydınlıq gətirilməli, ziddiyyətli məqamlar aradan qaldırılmalıdır. Azərbaycan Respublikasının adından çıxarılan məhkəmə aktlarında işin ədalətli həllini şübhə altına alan, ziddiyyətlər yaradan və mübahisə üzrə iştirakçıların konstitusiya məhkəmə müdafiəsi hüququna təsir göstərən müddəalar olmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun N.Əbilovun şikayəti üzrə 13 iyun 2008-ci il tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən formalaşdırılmış hüquqi mövqeyə görə, qanuni qüvvəyə minmiş məhkəmə aktlarının qanunvericilikdə nəzərdə tutulmuş müddətlər çərçivəsində deyil, qeyri-məhdud zaman kəsiyində mübahisələndirilməsi imkanının mövcudluğu illüziyasını yaradan belə vəziyyət, hüquqi müəyyənliyin tərkib hissəsi olan "res judicata" prinsipinin, ədalət mühakiməsinin ağlabatan müddətdə həyata keçirilməsi tələbinin inkar edilməsilə yanaşı, artıq həll olunmuş mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının sabitliyinə, davamlılığına xələl gətirir.

Belə mövqe İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra - Avropa Məhkəməsi) qərarlarında da öz əksini tapmışdır. Belə ki, "Brumaresku Rumıniyaya qarşı" iş üzrə 28 oktyabr 1999-cu il tarixli Qərarda göstərilmişdir ki, hüququn aliliyinin əsas aspektlərindən biri olan hüquqi müəyyənlik prinsipi digərləri ilə yanaşı tələb edir ki, məhkəmələr tərəfindən tamamilə həll edilmiş iş üzrə qəbul olunan yekun qərar şübhə doğurmamalıdır.

Avropa Məhkəməsinin "Ryabıx Rusiyaya qarşı" iş üzrə 24 iyul 2003-cü il tarixli Qərarında isə qeyd edilmişdir ki, hüquqi müəyyənlik, "res judicata" prinsipinə hörməti (yəni bir dəfə həll edilmiş işə təkrar baxılmanın yolverilməzliyini) nəzərdə tutur. Prinsip onu əks etdirir ki, tərəflərdən heç biri yalnız işə təkrar baxılması və yeni qərara nail olmaq məqsədilə yekun, qanuni qüvvəyə minmiş qərara yenidən baxılmanı tələb edə bilməz. İşə yenidən baxılması üzrə yuxarı məhkəmə instansiyasının səlahiyyəti işə mahiyyəti üzrə yenidən baxmaq məqsədilə deyil, məhkəmə səhvlərini, ədalət mühakiməsinin qeyri-düzgün aparılmasını aradan qaldırmaq məqsədilə həyata keçirilməlidir. Yenidən baxma şikayətin gizli forması hesab edilə bilməz, eyni zamanda, yalnız bir məsələyə dair iki yanaşmanın mövcud olması yenidən baxma üçün əsas

ola bilməz. Yalnız əsaslı və qarşısıalınmaz xarakterli hallara görə məcburiyyət qarşısında qalma bu prinsipdən geri çəkilməyə haqq qazandırır.

Avropa Məhkəməsinin bu hüquqi mövqeyini nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu xüsusi olaraq qeyd edir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının ləğvi və ya dəyişdirilməsi üçün əsaslar konstitusiya əhəmiyyətli məqsədlərə cavab verməli, hüquqi müəyyənlik və mütənasiblik prinsiplərinə uyğun olaraq məhkəmə qərarının ədalətliliyini, stabilliyini və tarazlığını pozmamalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu öz hüquqi mövqeyini təkrarlayaraq bir daha qeyd edir ki, Konstitusiyanın 60-cı maddəsində təsbit edilmiş məhkəməyə müraciət etmək hüququ Konstitusiyada bəyan edilmiş hüquq və azadlıqların təminatlarına əsaslanır. Belə ki, məhkəmənin qəbul etdiyi qərarın hüquqa zidd olduğunu yalnız qanunla müəyyən edilmiş qaydada müvafiq instansiya məhkəməsi müəyyən edə bilər. Bu isə hüquqi dövlətə xas olan məhkəmədən başqa heç kəsin məhkəmə qərarının ədalətliliyini və hüquqa uyğunluğunu şübhə altına ala bilməməsi prinsipindən irəli gəlir.

Məhkəmə səhvlərinin aradan qaldırılması məqsədilə konkret işlər üzrə (mülki, cinayət, inzibati) məhkəmə qərarlarına yenidən baxılmasının bu və ya digər formasını seçərkən qanunverici, ilk növbədə, pozulmuş hüquqların real və vaxtında bərpa edilməsi üçün hüquq və azadlıqların adekvat təmin edilməsi zərurətindən çıxış edir. Aydındır ki, səhv məhkəmə qərarı hüquqa uyğun hesab edilə bilməz.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin şikayəti üzrə işə yenidən baxılması məhkəmə səhvlərinin, məhkəmə qərarlarının əsaslı olmamasının, maddi hüquq normalarının məhkəmə tərəfindən düzgün tətbiq edilməməsinin və ya prosessual qanunvericilik normalarının pozulmasının və ya digər məsələlərin yoxlanılması məqsədini daşımamalıdır. Bu zaman məhkəmənin üzərinə düşən əsas vəzifə həmin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin pozulmuş hüquqlarının bərpa edilməsidir.

Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyindən fərqli olaraq, İnzibati Prosessual Məcəllədə qanuni qüvvəyə minmiş məhkəmə qərarından işdə iştirak etməyə cəlb olunmayan, məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin şikayət vermək hüququ nəzərdə tutulmamışdır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, inzibati prosessual qanunvericiliyin əsas prinsiplərindən biri, inzibati prosesdə iştirak edən bütün şəxslərin Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının qanunsuz məhdudlaşdırılması hallarından müdafiəsini təmin etməkdir. İnzibati prosesin gedişatında hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etmək hüququ vardır.

İnzibati hüquq münasibətləri (idarəçilik sahəsində ümumi (publik) hüquq münasibətləri) dövlət idarəçiliyi və ya yerli özünüidarəetmə sahəsində yarandığından və bilavasitə dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi prosesində inzibati orqanların vəzifə və səlahiyyətlərinin yerinə yetirilməsi ilə bağlı olduğundan, bu münasibətlərdən yaranan mübahisələrdə iştirakçıların dairəsi mülki münasibətlərdən fərqli olaraq daha məhdud olur. Bu baxımdan qanunverici inzibati məhkəmə icraatı zamanı işdə iştirak etməyə cəlb olunmayan, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxslərin prosessual statusunu müəyyən etməmişdir.

Eyni zamanda, qanunverici Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsindən fərqli olaraq, inzibati prosesdə işə baxan məhkəməyə daha geniş səlahiyyət vermişdir. Belə ki, İnzibati Prosessual Məcəllənin 11-ci maddəsinə əsasən, inzibati məhkəmə icraatı hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir. Məhkəmə inzibati prosesin gedişində proses iştirakçılarından hər birinə öz mövqeyini ifadə etmək, prosessual hüquqlarını və vəzifələrini həyata keçirmək üçün tam və bərabər imkanlar yaratmağa borcludur.

Həmin Məcəllənin 12.1 və 12.2-ci maddələrinə görə, məhkəmə proses iştirakçılarının izahatları,

ərizə və təklifləri ilə, onların təqdim etdikləri sübutlarla və işdə olan digər materiallarla kifayətlənməyərək, mübahisənin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları xidməti vəzifəsinə görə araşdırmağa borcludur. Məhkəmə müstəqil şəkildə öz təşəbbüsü ilə və ya proses iştirakçılarının vəsatətinə əsasən digər zəruri sübutları toplamağa borcludur. Məhkəmə tərəflərdən əlavə məlumat və sübutlar tələb edə bilər.

Göründüyü kimi inzibati prosessual qanunvericiliyin tələblərinə görə, inzibati işə baxan məhkəmə işi hərtərəfli araşdıraraq mübahisənin düzgün həll edilməsi üçün əhəmiyyət kəsb edən bütün hallara qiymət verməli və mübahisə üzrə gələcəkdə qəbul ediləcək qərarın digər şəxslərin hüquq və mənafelərinə toxuna biləcəyini araşdırmalıdır.

Lakin müraciətdən də göründüyü kimi, təcrübədə məhkəmələr tərəfindən xidməti vəzifəsinə əsasən maraqlarına toxunan şəxslərin məhkəmə icraatına cəlb olunmaması hallarına rast gəlinir. Belə olan halda həmin şəxslər Konstitusiyanın 60-cı maddəsi ilə nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun pozulduğunu haqlı olaraq qeyd edirlər. Çünki məhkəmə qərarı qanuni qüvvəyə mindiyinə görə həmin şəxslərin İnzibati Prosessual Məcəllənin 28-ci maddəsinə uyğun olaraq üçüncü şəxs qismində inzibati məhkəmə icraatına cəlb edilməsi mümkün olmur və onlar inzibati məhkəmə icraatının iştirakçısı olmadığı üçün həmin Məcəllənin 81-ci maddəsinə əsasən bu qərardan apellyasiya şikayəti vermək hüququndan məhrum olurlar.

İnzibati Prosessual Məcəllənin 28-ci maddəsinə əsasən, iş üzrə məhkəmə qərarı qanuni qüvvəyə minənə qədər və ya iş yuxarı instansiya məhkəməsinin icraatında olduğu müddətdə, məhkəmə qərarının digər şəxslərin qanunla qorunan maraqlarına toxunacağı hallarda, məhkəmə xidməti vəzifəsinə uyğun olaraq öz təşəbbüsü ilə və ya həmin şəxslərin vəsatəti əsasında onları üçüncü şəxs qismində inzibati məhkəmə icraatına cəlb edə bilər. Məhkəmə qərarının qəbul edildiyi, lakin qanuni qüvvəyə minmədiyi dövrdə məhkəmə üçüncü şəxslərin icraata cəlb edilməli olduğu qənaətinə gəldikdə, həmin məhkəmə qərarının ləğv edilməsi və işə mahiyyəti üzrə baxılmasının təzələnməsi barədə qərardad qəbul edir. Mübahisə edilən hüquq münasibətində üçüncü şəxsin iştirakının xarakteri inzibati məhkəmə icraatının tərəfləri və həmin üçüncü şəxs barəsində vahid qərarın qəbul olunmasını şərtləndirdiyi hallarda, həmin şəxs iştirakçı kimi inzibati məhkəmə icraatına mütləq cəlb edilməlidir (zəruri cəlbetmə). Üçüncü şəxslərin inzibati məhkəmə icraatına cəlb edilməsi barədə məhkəmə qərardadı inzibati prosesin bütün iştirakçılarına təqdim olunmalıdır. Qərardadda məhkəmə tərəfindən baxılan işin halları və cəlbetmənin səbəbləri göstərilməlidir. İnzibati məhkəmə icraatına cəlbetmə barədə məhkəmə qərardadından şikayət verilə bilməz. Məhkəmə tərəfindən xidməti vəzifəsinə əsasən məhkəmə icraatına cəlb olunmamış şəxslər, qəbul edilməsi nəzərdə tutulan məhkəmə qərarının onların qanunla qorunan maraqlarına toxunacağını güman etdikləri hallarda məhkəmə icraatına cəlbetmə barədə vəsatət qaldıra bilərlər. Məhkəmə həmin vəsatət barəsində 10 gün müddətində qərardad qəbul edir. Vəsatətin təmin edilməsindən imtina haqqında qərardaddan yuxarı məhkəməyə şikayət verilə bilər.

Həmin maddədə qanunverici cəlbetmənin iki növünü nəzərdə tutmuşdur: adi cəlbetmə və zəruri cəlbetmə. Zəruri cəlbetmə o zaman yaranır ki, hüquqi mübahisənin mahiyyəti üzrə qərar üçüncü şəxslərin maraqlarına bilavasitə təsir etsin. Burada həlledici məqam cəlb edilən şəxslə tərəf arasındakı mövcud hüquq münasibəti deyil, hüquqi mübahisə ilə bağlı qərarın potensial təsiridir.

Zəruri cəlbetmə o zaman mövcud olur ki, qəbul ediləcək məhkəmə qərarı tək inzibati məhkəmə icraatının tərəfləri barəsində deyil, həmçinin üçüncü şəxsə münasibətdə də hüquqi qüvvəyə malik olsun. Əgər məhkəmə qərarını üçüncü şəxsin hüquqlarına müdaxilə etmədən (başqa şəxs üçün hüquq və vəzifələrin yaradılması, təsdiq və ya müəyyən olunması, dəyişdirilməsi və ya ləğv edilməsi) qəbul etmək mümkün deyilsə, həmin şəxs mütləq məhkəmə icraatına cəlb edilməli və bu, zəruri cəlbetmə kimi qiymətləndirilməlidir. Bu hal bir qayda olaraq o zaman mövcud olur ki, üçüncü şəxsin mübahisəli hüquq münasibətlərində birbaşa iştirakı olsun və münasibətin hüquqi taleyi həll edildiyi zaman qəbul edilmiş qərar onun maraqları-

na təsir etsin. Bu halda həmin şəxs üçüncü şəxs qismində, yəni iştirakı zəruri olan üçüncü şəxs qismində inzibati məhkəmə icraatına cəlb edilməlidir.

Qeyd olunduğu kimi, məhkəmələr tərəfindən xidməti vəzifəsinə əsasən zəruri cəlb edilməli olan şəxslərin məhkəmə icraatına cəlb olunmaması onların prosessual statusdan məhrum edilməsi ilə nəticələnir və məhkəmə qərarından apellyasiya şikayəti vermək hüququnu məhdudlaşdırır.

Belə ki, İnzibati Prosessual Məcəllənin 27-ci maddəsinə görə, inzibati məhkəmə icraatının iştirakçılarına iddiaçı, cavabdeh və icraata cəlb olunmuş üçüncü şəxslər aiddir.

Həmin Məcəllənin 81.1 və 81.2-ci maddələrinə əsasən, inzibati-iqtisadi məhkəmələr tərəfindən qəbul olunmuş qərarlardan və ya qərardadlardan, bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, şikayət verilə bilər. Şikayətə apellyasiya qaydasında apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi kollegiyaları tərəfindən baxılır. İnzibati məhkəmə icraatının iştirakçıları (tərəflər və məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər) yalnız onların tələblərinin təmin olunmadığı hallarda şikayət vermək hüququna malikdirlər.

Göründüyü kimi, inzibati məhkəmə icraatı zamanı apellyasiya şikayəti vermək hüququnun yalnız icraatın iştirakçılarına məxsus olduğu imperativ qaydada müəyyən edilmişdir. Qanunverici həmin normada göstərir ki, istənilən şəxs deyil, yalnız icraata cəlb olunmuş üçüncü şəxslər şikayət vermək hüququna malikdirlər.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə İnzibati Prosessual Məcəllənin 28.1-ci maddəsinə müvafiq olaraq üçüncü şəxs qismində işə cəlb edilməsi həmin şəxsin hüquqlarının və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulduğu hallarda mümkün hesab edilə bilər.

Lakin Konstitusiyanın 7-ci maddəsində təsbit olunmuş hakimiyyətlərin bölünməsi prinsipinə görə Konstitusiya Məhkəməsi normayaradıcı, yəni hər hansı hüquq münasibətlərinin tənzimlənməsinə dair normativ hüquqi akt qəbul edən, o cümlədən hər hansı normativ hüquqi akta əlavə və dəyişikliklərin edilməsi təşəbbüsünə malik olan orqan deyil, səlahiyyətli subyektlərin sorğu və müraciətləri, fərdi şikayətlər əsasında qanunverici, icra və məhkəmə hakimiyyəti orqanları və yerli özünüidarəetmə orqanları tərəfindən qəbul olunmuş aktlar üzərində konstitusiya nəzarətini həyata keçirən ali konstitusiya ədalət mühakiməsi orqanıdır.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə aktı ilə maraqlarına toxunan şəxsin Konstitusiyanın 60-cı maddəsinin I hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra - Konvensiya) 6-cı maddəsindən irəli gələn məhkəməyə müraciət etmək hüququ qanunvericilik qaydasında tənzimlənməlidir. Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 6-cı bəndində isə məhkəmə icraatı, məhkəmə qərarlarının icrası qaydalarının müəyyən edilməsi Azərbaycan Respublikası Milli Məclisinin (bundan sonra - Milli Məclis) səlahiyyətinə aid edilmişdir.

Qanunvericilik qaydasında müvafiq tənzimlənmə həyata keçirilənədək Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxs, hüquqları və qanunla qorunan maraqları əhəmiyyətli dərəcədə pozulduğu hallarda inzibati məhkəmə icraatına üçüncü şəxs qismində cəlb edilə bilər. Belə cəlbetmə bu Qərarda əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla, İnzibati Prosessual Məcəllənin 28.1-ci maddəsinə uyğun həll edilməlidir.

Lakin məhkəmə qanuni qüvvəyə minmiş qərarının ləğv edilməsi və işə mahiyyəti üzrə baxılmasının təzələnməsi barədə qərardad qəbul edərkən hüquqi müəyyənliyin mühüm tərkib hissəsi olan məhkəmə qərarlarının stabilliyi prinsipinin qorunması məqsədilə maraqlı şəxsin üçüncü şəxs qismində işə cəlb edilməsi üçün aşağıdakılara xüsusi

diqqət yetirməlidir:

- qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə inzibati məhkəmə icraatına cəlb olunmamış şəxsin hüquqlarının və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulub-pozulmamasına;

- inzibati məhkəmə icraatına cəlb olunmamış şəxsin öz hüququnun pozulduğunu bildiyi və ya bilməli olduğu vaxtın müəyyən edilməsinə.

Beləliklə, həmin şəxs məhkəməyə müraciətində öz hüquqlarının və qanunla qorunan maraqlarının pozulmasını və bu pozuntunun ona hansı vaxtdan məlum olduğunu əsaslandırmalıdır.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxsin Konstitusiyanın 60-cı maddəsinin I hissəsindən və Konvensiyanın 6-cı maddəsindən irəli gələn məhkəməyə müraciət etmək hüququnun tənzimlənməsi Milli Məclisə tövsiyə edilməlidir;

- məsələ qanunvericilik qaydasında həll edilənədək Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxs, hüquqları və qanunla qorunan maraqları əhəmiyyətli dərəcədə pozulduğu hallarda inzibati məhkəmə icraatına üçüncü şəxs qismində cəlb edilə bilər.

Belə cəlbetmə bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla, İnzibati Prosessual Məcəllənin 28.1-ci maddəsinə uyğun həll edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. İnzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxsin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsindən irəli gələn məhkəməyə müraciət etmək hüququnun tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

2. Məsələ qanunvericilik qaydasında həll edilənədək Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsində və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə inzibati məhkəmə icraatına cəlb olunmamış, qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə maraqlarına toxunan şəxs, hüquqları və qanunla qorunan maraqları əhəmiyyətli dərəcədə pozulduğu hallarda inzibati məhkəmə icraatına üçüncü şəxs qismində cəlb edilə bilər.

Belə cəlbetmə bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28.1-ci maddəsinə uyğun həll edilməlidir.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində, "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 12 aprel 2017-ci il*